Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

16 MAY 2019-cu il

№ 87 (3985)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ABŞ - İRAN MÜHARİBƏSİNİN AZƏRBAYCANA MÜMKÜN TƏSİRLƏRİ ƏN NARAHAT MÜZAKİRƏ MÖVZUSU KİMİ...

*«Azərbaycan var gücü ilə çalışır ki, yad savaşa cəlb olunmasın...»*

səh. 8

**Müdafiə Nazirliyi təlimin müəyyən hissələrinin videokadrlarının bütün dünyaya nümayiş etdiriləcəyini bildirdi**

səh. 4




## Azərbaycan Ordusu Ermənistanın gecə hücumunu dəf edib əks zərbə vurmağın təlimlərinə başlayır

Azərbaycan Ermənistanı destabilizasiya mənbəyi kimi bütün dünyaya tanıda bildi...

səh. 9

Orduxanın təklikdə Azərbaycan Prezidentinin səfər günləri etdikləri - son 20 ildə xaricdəki ermənilər belə davranış sərgiləməyib

səh. 3

Paşinyanın Brüsseldən Asiya dialoqu forumuna keçidi - "Şimal-Cənub" avtomagistralına Çini cəlb etmək daşa dirənib...

səh. 5

Azərbaycan əhalisinin təxminən yarısı məcburi tibbi sığorta haqqı ödəməyəcək...

səh. 10

Təhsil Nazirliyi şagird intiharlarının kökləri ilə bağlı orijinal platforma nümayiş etdirdi - məktəblərdə şagirdi intihara sövq edən nə ola bilər ki?

səh. 12

Ayın 29-da Bakıda "Arsenal" - "Çelsi" oyununu idarə edəcək futbol hakimi Rokki kimdir?

səh. 11

Bakıətrafı qəsəbə istixanalarında qadın əməyinin istismarı qulçuluq dövrü ilə müqayisə edilir...

səh. 11

Şou müğənnilərinin özlərinə saxta fanatlar ordusu yaratmaq taktikası...

səh. 15




**Brüssel sammitində Azərbaycanla bağlı uydurulmuş xəbərlərin hədəfi - Prezidentin Avroittifaqla əlaqələrini səngitmək, Avroittifaq əleyhinə Azərbaycanda rəyi qızışdırmaq...**

səh. 3

**Paşinyan Çin Prezidentinin «ətəyini buraxmır» - Azərbaycansız «Bir kəmər, bir yol»a qoşulmaq mümkündürmü...**

səh. 5



**Azərbaycanın nağd puldan imtina strategiyası beynəlxalq müstəvilərdə də yer aldı**

səh. 7

səh. 4

Dağlıq Qarabağ problemi niyə indiyə qədər həll olunmayıb - əsl səbəb Paşinyanın Brüsseldə təxribatçı bəyanatından çox-çox uzaqdır...



səh. 6

Milli Məclisə düşməyən bircə şou müğənniləri qalmışdı - bəzilərinin qulağına yenə söz dəyib...



səh. 10

1, 2 və 3-cü kateqoriya əlillik modeli beynəlxalq təcrübəyə uyğun deyilsə - Azərbaycan alternativ model axtarışında...



səh. 14

Azərbaycanda əməyin tam leqallaşdırılması yollarında ən böyük maneələr...



səh. 13

Məktəblər mobil telefonlarda əxlaqsız videoların yayılmasına qarşı şagirdlər arasında maraqlı işə başlayıb - prosesə bəzən valideynlər də cəlb olunur





## Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevi və Azərbaycan xalqını Ramazan ayı münasibətilə təbrik edib

**Mayın 15-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə zəng edib.**

Baki-xeber.com-un Azərbaycan Prezidentinin rəsmi İnternet saytından aldığı xəbərə görə, Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevi və Azərbaycan xalqını Ramazan ayı münasibətilə təbrik edib, dövlət başçısına və xalqımıza firavanlıq arzularını çatdırıb. Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib və öz növbəsində, Rəcəb Tayyib Ərdoğanı və Türkiyə xalqını bayram münasibətilə təbrik edib, Türkiyə Prezidentinə və xalqına ən xoş arzularını çatdırıb. Söhbət zamanı dövlət başçıları Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.

## Çavuşoğlu Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin həllində fəaliyyətindən danışdı

**Türkiyə Dağlıq Qarabağ münaqişəsinin həlli üçün fəal şəkildə çalışır. "Trend"in məlumatına görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.**

Nazirin sözlərinə görə, ümumilikdə Türkiyə Cənubi Qafqazdakı münaqişələrin sülh yolu ilə həllini dəstəkləyir. M.Çavuşoğlu qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli Türkiyə üçün vacibdir.

# Məmmədyarov Brüsseldə ermənipərəst jurnalistləri, sözün əsl mənasında, susdurdu

*"Xalqların sülhə hazırlanması dedikdə, ilk növbədə, Ermənistanda sülhə hazırlıq nəzərdə tutulur"*

**Xalqların sülhə hazırlanması dedikdə, ilk növbədə Ermənistanda sülhə hazırlıq nəzərdə tutulur.**

"Trend"in məlumatına görə, bunu Azərbaycanın Xarici işlər naziri Elmar Məmmədyarov Brüsseldə erməni jurnalistlərin suallarını cavablandırarkən deyib.

Erməni jurnalistin "Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qanunsuz rejimin danışıqlar prosesinə qoşulmadan münaqişənin nizamlanmasında heç bir irəliləyişə nail olmaq mümkün deyil" barədə ifadəsinə E.Məmmədyarov cavab verib: "Fikrimcə, bu tam düzgün deyil, çünki danışıqlar apardığımız bu illər ərzində həmsədrlər regiona səfər edib və Qarabağa gedib, orada erməni icmasının nümayəndələri ilə söhbət edib. Bundan başqa, həm əvvəlki, həm də indiki administrasiya, ümid edirəm ki,



danışıqlarla bağlı erməni icmasını məlumatlandırır. Yeri gəlmişkən, sizin rəhbərliyiniz də bəyan etmişdi ki, məlumatlandırırlar. Məsələ onda deyil ki, iştirak edirlər, ya yox. Məsələ ondadır ki, prosesi başa çatdırmaq üçün nizamlanmaya ciddi siyasi yanaşma sərgiləməliyik. Mən bunu substantiv danışıqlar adlandırıram, siz predmet danışıqları adlandıra bilərsiniz. Öz Konstitusiyanızı oxuyun, ondan sonra danışarıq. Siz oturub özünüzü aldadırsınız, erməni xalqını aldatmaq istəyirsiniz. Mənim bir sualım var - Azərbaycanla 30 il müharibədən erməni xalqı nə əldə etdi?"

Erməni jurnalistin "Bəs Azərbaycan xalqı nə əldə etdi" sualına cavab olaraq nazir yolların açılışını, qaz və neft kəmərlərinin tikintisini göstərib: "Bütün bunlar azdır?"

E.Məmmədyarov qeyd edib ki, xalqların sülhə hazırlanması dedikdə, ilk növbədə Ermənistanda sülhə hazırlıq nəzərdə tutulur:

"Sizin dörd ölkənin azı ikisi ilə sərhədləriniz bağlıdır. Üçüncüsü ilə də bağlanmaq üzrədir. Və? Düşünün, özünüzə sual verin".

# ABŞ səfirliyi "GreenCard"la bağlı azərbaycanlılara müraciət etdi - Ehtiyatlı olun

**ABŞ-ın Azərbaycandakı səfirliyi 2020-ci il üçün Viza Lotereyası proqramının (GreenCardVisa) ərizəçilərinə göndərilən saxta elektron poçt və məktubların sayının əhəmiyyətli dərəcədə artması ilə bağlı ictimaiyyətə xəbərdarlıq edib.**

Baki-xeber.com diplomatik nümayəndəliyin məlumatına əsasən xəbər verir ki, bu cür saxta elektron poçt və məktubların müəllifləri "GreenCard" proqramının ərizəçilərindən ödəniş əldə etmək üçün özlərini ABŞ hökumətinin nümayəndəsi kimi təqdim edirlər.

"Bundan əlavə, yerli viza təşkilatları Viza Lotereyasına daxil etmək məqsədi ilə Sizdən şəxsi məlumatları almaq üçün müraciət edə bilər. Bu təşkilatlar yalnız öz maraqlarını güdür. ABŞ səfirliyi heç bir yerli




"GreenCard" təşkilatı ilə çalışmır və ya dəstək göstərmir" - səfirliyin bəyanatında deyilir.

Diplomatik nümayəndəlikdən bildirilib ki, ərizəçilər bu cür fırıldaqçılıq əməlinin qurbanı olduğunu hesab edirsə və yaxud fırıldaq məqsədilə onlara müraciət olunubsa, "Facebook" səhifəsi vasitəsilə və yaxud Consularbaku@state.gov elektron poçt ünvanına müraciət etməklə səfirliyə məlumat versinlər.

Bundan başqa, yalnız Dövlət Departamentinin rəsmi saytı (http://www.dvlottery.state.gov) vasitəsilə heç kimə ödəniş etmədən ərizəni yoxlamaq olar.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -
Abunə!
Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Azərbaycanda 100 mindən çox "Kalaşnikov" avtomatı istehsal edilib

**Azərbaycanda Rusiya lisenziyası ilə 100 mindən çox "AK-74M Kalaşnikov" avtomatı istehsal edilib.**

"Trend"in məlumatına görə, bunu Azərbaycanın müdafiə-sənaye kompleksinin nümayəndəsi Minskdə keçirilən "MILEX 2019" beynəlxalq silah sərgisində deyib.

Onun sözlərinə görə, ölkədə "Kalaşnikov" avtomatlarının istehsalı 2021-ci ilədək davam edəcək: "Ümumilikdə 120 minədək "AK-74M" avtomatının istehsalı nəzərdə tutulur".

Qeyd edək ki, Azərbaycan Müdafiə Sənayesi Nazirliyi 2011-ci ildən AK-74M avtomatlarını istehsal edir. Bu avtomatlara "Xəzri" adlı verilib.

**Xatırladaq ki, Minskdə "MILEX 2019" beynəlxalq silah sərgisi mayın 15-dən 18-dək davam edəcək.**

# Brüssel sammitində Azərbaycanla bağlı uydurulmuş xəbərlərin hədəfi - Prezidentin Avroittifaqla əlaqələrini səngitmək, Avroittifaq əleyhinə Azərbaycanda rəyi qızışdırmaq...

**Məlum olduğu kimi, Avropa İttifaqının "Şərq tərəfdaşlığı" təşəbbüsünün 10 illiyinə həsr edilən və Brüsseldə keçirilən yubiley toplantısı ilə bağlı erməni mediası Azərbaycan barədə yalan məlumat yaydı. Guya toplantıda Avropa İttifaqı ölkələrinin və "Şərq tərəfdaşlığı" təşəbbüsünə qoşulan ölkələrin xarici işlər nazirləri tərəfdaşlığın 10 illiyinə həsr edilmiş yekun bəyannamə imzalamalı idilər.**

*”Diplomatiyamızın çevik fəaliyyəti nəticəsində bütün yalanlar ifşa edildi”*

***Məhərrəm Zülfüqarlı:** ”Görünən odur ki, müəyyən dairələr Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsindən narahatdırlar”*

Lakin sənəddə tərəfdaş ölkələrin ərazi bütövlüyünə dəstək ifadə olunmayıb və nəticədə Azərbaycan nümayəndə heyəti sənədi imzalamaqdan imtina edib.

Əslində, Brüsseldə nə baş verib? Məsələ ondadır ki, "Şərq tərəfdaşlığı"nın 10 illiyinə həsr olunmuş xarici işlər nazirlərinin görüşü ilə bağlı yekun sənədin qəbul edilməsi, ümumiyyətlə, nəzərdə tutulmyıb. Habelə, "Şərq tərəfdaşlığı"nın və Avropa İttifaqının bütün üzv dövlətləri, eləcə də Avropa institutlarının vahid sənədinin qəbul edilməsi ilə bağlı təklif irəli sürüldüyü zaman aparılmış müzakirələr prosedur xarakteri daşıyıb. Qəbul ediləcək sənədin yığcam, yoxsa əvvəlki sammitlərdə olduğu kimi geniş, əhatəli və bütün məqamlara diqqət yetirən bir sənəd olması ətrafında müzakirələr aparılıb. Azərbaycan yekun sənəd qəbul ediləcəyi təqdirdə sözügedən bəyannamədə Avropa İttifaqının bütün üzv dövlətlərinin və "Şərq tərəfdaşlığı" ölkələrinin prinsipial məsələlərinin tam şəkildə əks etdirilməsinin tərəfdarı olub. Bu xüsusda bütün "Şərq tərəfdaşlığı" ölkələrinin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü məsələsi Azərbaycan, eləcə də Gürcüstan və Moldova tərəfindən birlikdə təklif edilib. Sadəcə, sənədi müəyyən qədər qısaltmaq məqsədilə "Şərq tərəfdaşlığı" dövlətlərinin Avropa İttifaqının institutları, eləcə də Avropa İttifaqının üzv dövlətləri ilə müzakirələri zamanı əvvəlki sammitlərin sənədlərinə istinadlar olunması və bununla da sözügedən prinsiplərin sənəddə öz əksini tapması barədə razılıq əldə edilib.

Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi xanım Federika Mogerini tərəfindən imzalanmış "sədrin yekun qeydləri" adlı sənəddə bütün əvvəlki sammitlərə istinadlar yer alır. Yəni bütün "Şərq tərəfdaşlığı" sammitlərində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və müstəqilliyi birmənalı şəkildə tanınır.




Onu da qeyd edək ki, Prezident İlham Əliyev Brüsseldə səfər çərçivəsində yüksək səviyyəli görüşlər keçirib. Bu da başda ermənilər olmaqla müəyyən bədxahları bərk narahat edir. Ola bilərmi ki, sözügedən yalan informasiyanın yayılmasında məqsəd bütün bunlara kölgə salmaq niyyəti olub? Həmçinin, bu informasiya Azərbaycanla Aİ arasında əlaqələri zəiflətmək məqsədi daşıyıb?

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlı bunu istisna etmədi: "Görünən odur ki, müəyyən dairələr Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsindən narahatdırlar. Çünki bu gün Avropa İttifaqı Azərbaycanın Cənubi Qafqazda önəminə xüsusi önəm verir. Prezident İlham Əliyevə Brüsseldə göstərilən böyük diqqət, keçirilən yüksək səviyyəli görüşlər deyilənlərə əyani sübutdur. Bütün bunlar müəyyən qüvvələri bərk narahat etdiyi üçün, həmin yalan informasiyanı ortaya atdılar. Ona görə belə yalan informasiya uydurdular ki, Azərbaycanın Avroittifaqla əlaqələrini korlasınlar. Ancaq buna nail ola bilmədilər.

Azərbaycan diplomatiyasının çevik fəaliyyəti nəticəsində bütün yalanlar ifşa edildi. Bəzi bədxahlar öz istəklərinə çata bilmədilər. Hansı ki, istəyirdilər Azərbaycanda Avropa İttifaqına yönəlik mənfi münasibət yaransın, amma bu alınmadı. Bu baxımdan belə məqsədlərlə çıxış edənlər Azərbaycanı sevməyən qüvvələrdir".

***Vidadi ORDAHALLI***

# Orduxanın təklikdə Azərbaycan Prezidentinin səfər günləri etdikləri - son 20 ildə xaricdəki ermənilər belə davranış sərgiləməyib

**Məlum olduğu kimi, Azərbaycan Prezidenti Brüsseldə düzənlənən mühüm bir tədbirdə iştirak etmək üçün həmin şəhərə rəsmi səfər etdi. Ölkə başçısını səfərdə Avropanın müxtəlif ölkələrindən olan diaspor fəalları sevinc və coşqu ilə qarşıladılar.**



*”Onun etdiyi tərbiyəsizlik ən sərt qınağa layiqdir”*

***İsmayıl Ağayev:** ”Belə adamların diasporla heç bir əlaqəsi yoxdur”*

Görünür, bu amil bəzi "sapı özümüzdən olan baltaları" ciddi narahat etməyə başladı. Həmin hadisənin səhəri günü ölkə başçısının qaldığı otelin qarşısında tərbiyəsizlik üzrə ad çıxarmış, uzun saçlı Orduxan Teymurxan görünməyə başladı. Maraqlıdır ki, əvvəl onun yanında kimlərisə görmək olurdu, ancaq bu dəfə tək idi. Artıq paylaşdığı videolara baxış sayından da görünür ki, özünü gülüş obyektinə çevirən bu şəxsin iç üzü tam ifşa olunduğundan, ona heç kim baş qoşmaq istəmir. Özünü zooparkdakı vəhşilər kimi aparan bu adam əlinə bir telefon alıb canlı yayıma qoşularaq ölkə başçısının maşın kortejinin ətrafında, sözün əsl mənasında, meymunluq etməyə başladı. Azərbaycan dövlətinin əleyhinə müəyyən tərbiyəsiz şüarlar səsləndirməklə elə zənn etdi ki, ölkəmizi nüfuzdan salmış oldu. Ancaq unudur ki, onun bu hərəkəti, avtomatik olaraq, gözümüzün önündə düşmənlərimizi canlandırdı. Çünki biz daha çox ölkəmizin rəsmilərinin səfər etdiyi ölkələrdə onların qaldıqları və ya tədbir keçirdiyi binaların önündə düşmənlərimiz olan ermənilərin etiraz aksiyası keçirdiyinin, qışqır-bağır saldığının şahidi olmuşuq. Ancaq Orduxanın hərəkətlərinə fikir verdikdə açıq göründü ki, onun etdiyi canfəşanlıq, ölkəmizi nüfuzdan salma cəhdi hətta erməniləri də geridə qoyurdu. Azərbaycan diasporunun təmsilçisi adından danışan bu adamın hərəkətləri insanlığa və azərbaycanlı mövqeyinə sığmır.

**Beynəlxalq Diaspor Mərkəzinin sədri İsmayıl Ağayev qəzetimizə bildirdi ki, həmin mənzərəni o da ürək ağrısı ilə seyr edib:** "Sizi inandırım ki, qəzəbimdən cümlələri də necə quracağımı bilmirəm. Mübarizə formları cürbəcür olur. Etirazın da bir forması var. Onun etdiyi hərəkət heç bir əndazəyə sığmırdı. Bunun bir adı var - səviyyəsizlik. Belə adamların diasporla heç bir əlaqəsi yoxdur. Bu xislətdə adamdan heç vaxt diaspor ola bilməz. Onlar yaxşı şəraitdə yaşamaq üçün xaricə qaçanlardır. Heç Vətənin dar günündə də burda olmayıblar. Birmənalı şəkildə onun etdiyi tərbiyəsizlik ən sərt qınağa layiqdir. Onu bu işə təhrik edən təşkilatlar da bilsinlər ki, belə addımlarla ancaq nifrət qazana bilirlər. Bu hərəkətlərlə bağlı hüquqi vasitələrə əl atmaq lazımdır. Bütün dünyanın gözü qabağında adam xuliqanlıq edirsə, niyə məsuliyyətdən kənarda qalmalıdır? Azərbaycan dövlətinə onların səviyyəsinə enmək yaraşmaz. Onlarla küçədə söyüşmək bizlik deyil. Hüquqi vasitələrlə onların qarşısı alınmalıdır. Həmin ünsürlər ölkənin bütün simvollarını təhqir edirlər. Onlar da məhz bunu istəyirlər ki, Prezidentin qorumalarından kimsə bir sərtlik göstərsin. Sonra da həmin faktı əllərində bayraq edib gəzsinlər.

Mən həmin hadisədə bizim rəsmi qurum nümayəndələrinin səbrli davranışını təqdir edirəm. Vətənini sevən bir şəxs heç vaxt xarici ölkədə belə biabırçılığa əl atmaz. Orduxana hazırda ən böyük dəstəyi ermənilər verirlər. Girin onların saytlarına baxın. Çünki bu cür hərəkətlərlə bağlı fikirləri üst-üstə düşür".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan Ordusu Ermənistanın gecə hücumunu dəf edib əks zərbə vurmağın təlimlərinə başlayır

*Müdafiə Nazirliyi təlimin müəyyən hissələrinin videokadrlarının bütün dünyaya nümayiş etdiriləcəyini bildirdi*

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə mayın 20-dən 24-dək Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin, qisim, birlik və birləşmələrin cəlb edilməsi ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək.**

Müdafiə Nazirliyindən baki-xeber.com-a verilən məlumata görə, təlimin əsas mövzusu düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə ona əks zərbələrin endirilməsi və qoşunlarımızın hücuma keçməsidir.

Təlimlərə 10 minədək şəxsi heyət, 150 tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 35 təyyarə və helikopter cəlb olunacaq.

Çətin relyef, gecə vaxtı və mürəkkəb radioelektron şəraitdə müxtəlif poliqonlarda keçirilən döyüş atışlı təlimlərdə tank, aviasiya, raket və artilleriya hissələri, eləcə də digər döyüş elementləri arasında uzlaşmanın təşkili, düşmənin müdafiəsinin dərinliyində desant və xüsusi manevr qüvvələrinin tətbiqi, idarəetmə orqanlarının bacarıqlarının təkmilləşdirilməsi, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji təminatı məsələləri üzrə tapşırıqlar yerinə yetiriləcək.

Bütün fəaliyyətlər təlimlərdə iştirak edən qoşunların gecə və çətin iqlim şəraitində dəqiq qarşılıqlı əlaqəsinin təmin edilməsi ilə icra olunacaq.

Bu arada Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri, polkovnik Vaqif Dərgahlı deyib ki, Ali Baş Komandanın təsdiq etdiyi plana əsasən, mayın 20-dən 24-dək Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin, qisim, birlik və birləşmələrin cəlb edilməsi ilə genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin keçirilməsi, həmişə olduğu kimi, növbəti dəfə Ermənistan tərəfini qorxuya salıb.

Vaqif Dərgahlı "Trend"-ə açıqlamasında bildirib ki, Ordumuzun planlı surətdə keçirdiyi təlimlər barədə Müdafiə Nazirliyi həmişə əvvəlcədən xəbər yaymaqla ictimaiyyəti və beynəlxalq qurumları məlumatlandırır: "Eyni zamanda, təlimin mərhələləri barədə foto-video süjetlər nazirliyin rəsmi internet saytı vasitəsilə ictimaiyyətə təqdim olunur. Bizdən fərqli olaraq, Ermənistan tərəfi heç vaxt belə bir addım atmır. Keçirdiyi dırnaqarası hərbi təlimlər barədə əvvəlcədən rəsmi məlumat vermir, yalnız "təlim" bitdikdən sonra əvvəllər çəkilmiş bir-iki döyüş texnikasının köhnə foto və videolarını yaymaqla kifayətlənir. Beynəlxalq qurumlar tərəfindən tanınmış sərhədlərimiz çərçivəsində təlimlər keçirməyimizdən təşvişə düşən rəsmi Yerevan, guya bizim hansısa tələbləri pozmağımız barədə uydurma və gülünc bəyanatlarla çıxış etməkdən belə çəkinmir".




# Dağlıq Qarabağ problemi niyə indiyə qədər həll olunmayıb - əsl səbəb Paşinyanın Brüsseldə təxribatçı bəyanatından çox-çox uzaqdır...

**Ermənistanın Baş naziri Nikol Paşinyan ölkəsində öz nüfuz və etibarını itirib. Baş nazirin əlində qalan yeganə vasitə Qarabağ məsələsidir. Paşinyan münaqişə ilə bağlı danışıqları imitasiya edərək özünə dividendlər qazanmağa çalışır. Bu minvalla Ermənistan ictimaiyyətinin diqqətini Qarabağa çəkməyə çalışır.**

*"Paşinyanın münaqişənin həlli ilə bağlı səsləndirdiyi fikirlər cəfəngiyyatdır"*

Çünki özü də artıq fərqindədir ki, cəmiyyətə verdiyi populist vədləri reallaşdırmaq gücündə deyil. Bu isə onun hakimiyyətdə qalmasını sual altında saxlayır. Ona görə də Paşinyan Dağlıq Qarabağ danışıqları ilə bağlı spekulyativ fikirlər səsləndirir.

Elə ona görədir ki, zaman-zaman Ermənistanın Baş naziri sərsəm bəyanatlarla çıxış edir, müəyyən siyasi taktikalar işlədir və ölkə əhalisinin diqqətini öz üzərinə çəkməklə nəbz yoxlamağa çalışır. Ancaq verdiyi bəyanatlarla heç bir müsbət irəliləyişə nail ola bilmir.

Paşinyan bu dəfə də özünün inadkar mövqeyini ortaya qoyub. O, Azərbaycanla Ermənistan arasında atəşkəs haqqında Bişkəkdə imzalanan sazişin 25 illiyi ilə əlaqədar Brüsseldə xüsusi bəyanatla çıxış edib. Paşinyan keçən dövr ərzində atəkəsin sülhə çevrilməməsinə guya təəssüf etdiyini bildirib. O iddia edib ki, guya separatçı qurum indiyə qədər danışıqlarda iştirak etmədiyinə görə münaqişə həll edilməyib. Yəni danışıqlar 3 tərəf arasında aparılmadığına görə problem öz həllini tapmayıb: "Ətraflı danışıqlar və nəticənin əldə edilməsi yalnız o vaxt mümkündür ki, Dağlıq Qarabağ, nəhayət, onun statusunun müəyyənləşdiriləcəyi və orada yaşayan insanların təhlükəsizliyinə zəmanətin təsbit ediləcəyi prosesə cəlb olunacaq".

Maraqlıdır, əslində münaqişənin indiyə qədər həll edilməməsinin səbəbi nə iə bağlıdır?

*Fikrət Sadıqov: "Münaqişənin indiyə qədər həll edilməməsinin başlıca səbəbi Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsidir"*



**Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, münaqişənin indiyə qədər həll edilməməsi Paşinyanın irəli sürdüyü danışıqlar formatı ilə yox, Ermənistanın işğalçılıq siyasəti ilə bağlıdır:** "Bunun başlıca səbəbi Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsidir. Çünki işğalı təkcə Dağlıq Qarabağdakı separatçılar yox, Ermənistan ordusu da həyata keçirib. Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdakı azərbaycanlılara qarşı etnik təmizləmə aparıb. Ətraf 7 rayonu Dağlıq Qarabağdakı separatçı dəstələr işğal edə bilərdilər? Təbii ki, yox. Ona görə də Paşinyanın münaqişənin həlli ilə bağlı səsləndirdiyi fikirlər cəfəngiyyatdır. Hətta münaqişənin həlli ilə bağlı "Madrid prinsipləri"ndə də göstərilib ki, torpaqların işğaldan azad edilməsi prosesi başlasın, Dağlıq Qarabağa müvəqqəti status verilsin. Daha sonra yekun status danışıqlar çərçivəsində həll edilsin. Biz bunun tərəfdarıyıq. Yəni nədənsə başlamaq lazımdır. Paşinyan isə separatçı qurumun danışıqlarda tərəf olması məsələsini qabardaraq münaqişənin həllini uzadır. Bu isə alınan iş deyil. Ona görə ki, Azərbaycanla yanaşı, ATƏT-in Minsk Qrupu da danışıqların mövcud format çərçivəsində keçirilməsinin tərəfdarıdır. Paşinyan münaqişənin həllini istəyirsə, o zaman işğala son qoymalıdır. Çünki problemin indiyə qədər həll edilməməsinin kökündə məhz bu amil dayanır".

***Vadidi ORDAHALLI***

# Paşinyan Çin Prezidentinin "ətəyini buraxmır" - Azərbaycansız "Bir kəmər, bir yol"a qoşulmaq mümkündürmü...

**Ermənistanın Baş naziri Çinə etdiyi səfər çərçivəsində həmin ölkənin prezidenti ilə görüşüb. Görüşdə Ermənistan-Çin münasibətlərinin gələcək inkişaf perspektivləri müzakirə edilib. Bu müstəvidə Ermənistanın Baş naziri bildirib ki, ölkəsi Çinin üzvü olduğu layihələrdə yaxından iştirak etməkdə maraqlıdır.**



*"Nə qədər ki, işğala son qoymayıb, Ermənistan regiondakı bütün proseslərdən kənarda qalacaq"*

## Elşən Əliyev: *"Ermənistanın "Bir kəmər, bir yol" layihəsində iştirak etməsinin hər hansı bir perspektivi yoxdur"*

Paşinyan deyib ki, ölkəsi xüsusilə də "Bir kəmər, bir yol" layihəsində yaxından iştirak etməyi planlaşdırır. Nə qədər maraqlı olsa da, ermənin Baş nazir bu layihədə özlərinin dəmir yolu, avtomobil nəqliyyatı imkanları və digər kommunikasiya vasitələri ilə iştirakını nəzərdə tutduğunu deyib. Paşinyan, eyni zamanda, Ermənistanı dinamik şəkildə iqtisadi inkişaf edən ölkə kimi xarakterizə edib. Qeyd edilir ki, tərəflər bu istiqamətdə müzakirələri davam etdirməklə bağlı razılığa gəliblər.

Tamamilə blokada şəraitində olan ölkənin malik olduğu infrastruktur hər hansı layihədə iştiraka imkan vermir. Bu aydındır. Eyni zamanda, maraqlıdır, Azərbaycanın razılığı olmadan Ermənistan "Bir kəmər, bir yol" layihəsində necə iştirak edə bilər? Ümumiyyətlə, Azərbaycandan yan keçməklə həmin layihədə iştirak mümkündürmü?

**İqtisadçı Elşən Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Çin "Bir kəmər, bir yol" vasitəsilə Avrasiya və Afrika ölkələri, qədim İpək yolu üzərində yerləşən dövlətlər arasında qarşılıqlı əlaqələrin və ticari-iqtisadi əməkdaşlığın inkişafını, malların güzəştli şərtlərlə Şərqdən Qərbə göndərilməsi üçün ticarət dəhlizlərinin yaradılmasını təklif edir və bu layihənin inkişafında maraqlıdır:** "Azərbaycan bu layihədə yaxından iştirak edir. Bunu şərtləndirən bir sıra amillər var. Onlardan birincisi əlverişli coğrafi mövqedə yerləşməyimizdir. İkincisi isə geniş logistik imkanlara sahib olmağımızdır. Yəni dəmir, dəniz, avtomobil yollarından tutmuş, ən müasir liman və portlaradək mövcud böyük və çevik nəqliyyat şəbəkəsi, yükdaşımanın təhlükəsiz marşrutu bizim "Bir kəmər, bir yol" üçün hazır imkanlara malik olduğumuzu şərtləndirir.

Pekində keçirilən ikinci "Bir kəmər, bir yol" beynəlxalq forumunda iştirak edən ölkə başçıları sırasında İlham Əliyev də olub. Digər nüfuzlu qonaqların da iştirak etdiyi həmin toplantıda Ermənistanın Baş naziri gözə dəymədi.

Qeyd edək ki, 2017-ci ildə keçirilən ilk konfransda həmin dövrdə Ermənistanın dövlət başçısı olan Serj Sarkisyan da iştirak etməmişdi. Ümumiyyətlə, S.Sarkisyan 2017-ci ildə keçirilən konfransda iştirak etməyən Avrasiya İttifaqının dövlət başçılarından yeganə prezident idi.

Ermənistan nə üçün Çinin təşəbbüsü ilə keçirilən konfranslarda iştirak etmir? Çünki həmin layihə ilə Ermənistanı heç nə bağlaya bilməz. Həmin konfransda müzakirə edilənlər Ermənistana aid olmayan məsələlərdir. Bir daha vurğulayım ki, "Bir kəmər, bir yol" layihəsinin tərkib hissəsinə çevrilmək, prosesə dəstək vermək üçün kifayət qədər ciddi iqtisadi potensiala, həmçinin, böyük logistik mərkəzlərə malik olmalısan. Ermənistanın isə belə imkanları yoxdur. Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində Ermənistan bölgədə həyata keçirilən bütün proseslərdən, layihələrdən kənarda qalıb. Əlbəttə, ölkəmizin bu istiqamətdə atdığı addımlar, faktiki olaraq, Ermənistanın bütün istiqamətlərdən yollarını bağlayıb. Azərbaycanın ərazisindən isə bir neçə nəqliyyat dəhlizi keçir və nəqliyyat dəhlizlərinin arasında əlaqə var. Ölkəmizin yerləşdiyi əlverişli coğrafi mövqe imkan verir ki, Azərbaycnın ərazisi "Bir kəmər, bir yol" layihəsinin tərkib hissəsi kimi fəaliyyət göstərsin".

Ekspertin sözlərinə görə, Ermənistan son vaxtlar Azərbaycanın izi ilə hərəkət etməyə üstünlük verir: "Bizim uğurlarımızı qısqanan həmin ölkənin bizi təkrar etməsi mümkünsüzdür. Ermənistanın xüsusilə də "Bir kəmər, bir yol" layihəsində iştirak etməsinin hər hansı bir perspektivi yoxdur. Nə qədər ki, işğala son qoymayıb, Ermənistan regiondakı bütün proseslərdən kənarda qalacaq, hətta Çin kimi nəhəng bir dövlətin irəli sürdüyü beynəlxalq təşəbbüslərdə də iştirak etmək imkanı əldə edə bilməyəcək. Çünki Azərbaycanın beynəlxalq nüfuzu, eyni zamanda, Çinlə və "Bir kəmər, bir yol" layihəsində yer alan ölkələrlə ikitərəfli əlaqələrinin yüksək səviyyədə olması Ermənistana bu imkanı tanımır. Azərbaycandan yan keçməklə isə bu prosesdə iştirak mümkünsüzdür. Onda gərək Çin iki mümkün yoldan birini seçsin. Təbii ki, Çin Azərbaycan kimi əvəzedilməz iqtisadi partnyoru nəyəsə dəyişən deyil".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın Brüsseldən Asiya dialoqu forumuna keçidi - "Şimal-Cənub" avtomagistralına Çini cəlb etmək daşa dirənib...

**Ermənistanın Baş naziri Nikol Paşinyan Brüsseldən tələsik Çinə yola düşüb. Erməni KİV-inin məlumatına görə, Paşinyanın Pekinə səfərinin məqsədi "Asiya sivilizasiyası dialoqu" adlı tədbirdə iştirakla bağlıdır. Əslində, dilənci vəziyyətinə düşmüş ölkə indi də Çindən özünə sərmayə cəlb etməyə çalışır.**



*"Çinin sözügedən layihəyə dəstək verəcəyi ilə bağlı yayılan xəbər ya erməni KİV-inin dezinformasiyasıdır, ya da..."*

## Elşən Mustafayev: *"Bunun üçün hazır logistik imkanların olduğu halda, niyə gedib Ermənistana maliyyə ayırmalıdır?"*

Təsadüfi deyil ki, bu xüsusda Paşinyan özlərinə aidiyyəti olmayan, lakin Çinin iştirak etdiyi proseslərdə yaxından maraqlı olduqlarını bəyan edir. Bu xüsusda "Bir kəmər, bir yol" layihəsinə maraq göstərdiklərini deyib.

Ancaq görünən budur ki, Ermənistan nisbətən blokadanı yarmaq üçün özünün ortaya atdığı "Şimal-Cənub" avtomagistralı layihəsini reallaşdırmaqda maraqlıdır. Bir neçə ölkə ilə bu istiqamətdə işbirliyi qurmaq cəhdləri alınmayan Ermənistan indi də həmin işə Çini qoşmaq istəyir. Ermənistan KİV-i hətta belə məlumat yayır ki, guya Çin həmin layihəni maliyyələşdirməyə razılıq verib. Görünən budur ki, Paşinyan, nəyin bahasına olursa-olsun, Çini həmin layihəyə cəlb etmək istəyir. Hətta görüşdə az qala çinlilərlə ermənilərin eyni soykökə malik olduğuna dair fikirlər səsləndirib.

Ümumiyyətlə, Çinin İranın da yer alacağı "Şimal-Cənub" avtomobil yolunun tikintisinə maliyyə ayıracağını nə dərəcədə inandırıcı saymaq olar?

**Politoloq Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistnaın "Şimal-Cənub" avtomobil yolu layihəsi uzun müddətdir qeyri-müəyyən vəziyyətdə qalıb:** "Çünki heç kim üçün cəlbedici sayılmayan həmin layihəyə pul ayıran yoxdur. İran, Ermənistan, Gürcüstanı əhatə edəcək həmin layihə vasitəsilə Asiya ilə Avropanı birləşdirmək istəyirlər. Ermənistan uzun illərdir onu ərsəyə gətirməyə çalışsa da, ortada heç bir nəticə yoxdur. Onsuz da iqtisadi embarqo altında olan İranın belə yola ehtiyacı yoxdur. Gürcüstan tranzit ölkə kimi öz qazancını götürməkdə maraqlıdır. Yəni hazır layihəyə şərik olacaq. Ermənistan isə acından ölür. Məcburdurlar ki, kənardan kimisə tapsınlar. Paşinyan eşidib ki, Çin son vaxtlar Qafqaza investisiya yatırmaqda maraqlıdır. Buna görə də olmayan nəyi varsa, Çinə təklif edir. Ancaq fikir verdikdə məlum olur ki, Çin əsasən Qafqaz ölkəsi kimi Gürcüstan və Azərbaycanla daha yaxından iqtisadi əməkdaşlıqda maraqlıdır. Çox sürətli inkişaf etmiş və geniş iqtisadi potensiala malik olan Çinə malları dünya bazarına çıxarmaq lazımdır. Bunun üçün hazır logistik imkanların olduğu halda, niyə gedib Ermənistana maliyyə ayırmalıdır? Əgər geniş yükdaşıma imkanlarına malik olan Bakı-Tiflis-Qars dəmir yolu layihəsi varsa, buna nə ehtiyac ola bilər? Bundan əlavə, İrandan çəkiləcək və daha böyük imkanlara malik "Şimal-Cənub" nəqliyyat dəhlizi ola-ola, niyə Ermənistanın heç bir perspektiv vəd etməyən layihəsinə pul ayırmaqda maraqlı olsunlar? Çin bilir ki, layihənin mənbəyi İrandan başlayacaq, bu yoldan istifadə ciddi problemlərə səbəb ola bilər. Hazırda ABŞ-ın təzyiqləri nəticəsində Çin İranla olan bir çox mühüm sahə üzrə əməkdaşlığa son qoyub. Bu baxımdan da Pekinin deyilən layihəyə ciddi maraq göstərəcəyi inandırıcı sayılmır. Çünki Ermənistan elə bir rentabelli ölkə deyil ki, ora qoyulan sərmayəni qaytara. Bu amil də Çini cəlb etməyəcək. Buna görə də Çinin sözügedən layihəyə dəstək verəcəyi ilə bağlı yayılan xəbər ya erməni KİV-inin dezinformasiyasıdır, ya da diplomatik görüşdə nəzakət xətrinə Çin tərəfindən səsləndirilən fikirdir".

***Məhəmmədəli QƏRİBLİ***

# Milli Məclisə düşməyən bircə şou müğənniləri qalmışdı - bəzilərinin qulağına yenə söz dəyib...

**Son illər Azərbaycanda bəzi şou müğənnilərinin deputatlıq kürsüsünə yiyələnməklə bağlı iddiaları bitib-tükənmək bilmir. Sənətdə heç bir uğur qazana bilməyən və ucuz yollarla populyarlıq qazanan şou-biznes nümayəndələri öz qəribə istəkləri ilə diqqəti çəkməkdədirlər.**



*"Şou müğənnilərinin parlamentdə oturmasının hər hansı bir fayda verə biləcəyini düşünmürəm"*

***Vüqar Rəhimzadə:** "Mən belə müğənnilərin deputat olmasının tərəfdarı deyiləm"*

Bu gün bir çox şou müğənnisi açıqlama verərək deputat olmaq istəyində bulunur. İddia edirlər ki, xalq onları sevir və onlar parlamentdə xalqın səsinə (?) çevrilə bilərlər.

Bildiyimiz kimi, müğənni Elza Seyidcahan bir neçə dəfə parlament seçkilərində iştirak etsə də, seçicilərin dəstəyini qazana bilməyib. Xalq artisti Flora Kərimovanın da parlament seçkilərində iştirak etdiyi məlumdur. Bundan başqa, bəzi tanınmış xalq artistləri, sənət adamları deputatlıq uğrunda mübarizə aparıblar, lakin bir-iki nəfəri çıxmaq şərtilə, şou-biznesçilərə böyük tərkibdə parlamentdə təmsil olunmaq nəsib olmayıb.

Şou-biznes müğənnilərinin öz əsas işlərini buraxıb siyasətə qoşulması və anlayışları olmayan bir sahəyə meyl göstərməsi, sözsüz ki, anormal haldır. Müğənni kimi heç bir uğur qazanmayanların parlament kürsüsündə əyləşmək iddiası normal qarşılanmır.

Elza Seyidcahan, Faiq Ağayev, Samiraldo, Elitstar Cəmilə kimi şou adamlarının deputat mandatı əldə etmək istəyi ekspertlər tərəfindən birmənalı olaraq mənfi qəbul edilir. Onlar hesab edirlər ki, parlament şou-biznes meydanı deyil ki, bəziləri oranı özlərinin dedi-qodu, qalmaqal poliqonuna çevirsinlər. Bu gün bəzi şou-biznesçilər müxtəlif sosial şəbəkələrdə, teleradio proqramlarında etdikləri çıxışlarda hazırda parlamentdə təmsil olunan deputatları yarıtmaz fəaliyyətdə ittiham edirlər, bildirirlər ki, şou müğənniləri xalqı daha yaxşı təmsil edə, onların problemlərini gündəmə gətirə bilərlər.

Bəzi şou müğənnilərinin deputat olmaq istəyini şərh edən "İki sahil" qəzetinin baş redaktoru, tanınmış ictimai-siyasi xadim Vüqar Rəhimzadə bildirdi ki, hər kəs öz işi ilə məşğul olsa, daha yaxşı olar. "Hesab edirəm ki, parlament, müəyyən mənada, siyasi döyüş meydanıdır. Orada daha çox yüksək səviyyəli mütəxəssislərin təmsil olunması daha faydalıdır. Burada daha çox hüquqşünasların, iqtisadçıların, siyasətçilərin olması vacibdir. Düşünürəm ki, hər kəs gedib öz işi ilə məşğul olsa, daha yaxşı olar. Siyasi proseslərdə, ictimai həyatda iştirakı olmayan hər hansı bir müğənninin deputat olması nə dərəcədə düzgün olar? Mən belə müğənnilərin deputat olmasının tərəfdarı deyiləm. Deputat olmaq istəyən adamın qanunvericilik bazasının formalaşmasına töhfə vermək imkanları olmalıdır. Müğənni öz sahəsində daha effektiv fəaliyyət göstərər və xalqa xidmət nümunəsini ortaya qoyar. Ancaq gəlib şou müğənnilərinin parlamentdə oturmasının hər hansı bir fayda verə biləcəyini düşünmürəm" - deyə V.Rəhimzadə bildirdi.

***İradə SARIYEVA***

# İspaniya gəmisi İranın üstünə getməkdən imtina etdi



**İspaniya ABŞ-ın "USS Abraham Lincoln" təyyarə gəmisi ilə İran körfəzinə göndərilən ABŞ donanması ilə birgə hərəkət edən "M?ndez Nunez" döyüş gəmisini geri çəkib.**

Baki-xeber.com xəbər verir ki, bu barədə İspaniyanın müdafiə naziri Marqarita Robles açıqlama verib.

Nazir Vaşinqtonla İran arasında yaranmış gərginliyə görə İran körfəzinə göndərilən ABŞ donanması arasında yer alan İspaniyanın "M?ndez Nunez" gəmisinin 125 nəfərlik heyətlə birlikdə bu qrupdan ayrılması barədə əmr imzalayıb. Hazırda ABŞ donanması Qırmızı dənizlə Hind okeanını birləşdirən Mendez boğazından keçib, İran körfəzinə girmək üçün Hörmüz boğazına yaxınlaşır.

Müdafiə naziri, İspaniyanın könülsüz bir şəkildə İranla hər hansı bir qarşıdurmaya çəkilməsini istəmədiyini deyib.

Robles qeyd edib ki, İspaniya ciddi və etibarlı tərəfdaşdır, ancaq bu yalnız Avropa İttifaqı və NATO ilə əldə olunan razılaşmalara aiddir. İspaniya ortaq mövqeyini bu razılaşmalar əsasında müəyyən edir.

# İran nüvə sazişi ilə bağlı 2015-ci ildəki bəzi öhdəliklərini dayandırdığını rəsmən açıqladı

**İran Hərtərəfli Birgə Fəaliyyət Planındakı bəzi öhdəliklərini dayandırdığını rəsmən açıqlayıb. Baki-xeber.com xəbər verir ki, bunu İranın Atom Enerjisi Təşkilatındakı mənbə İSNA agentliyinə deyib.**



O, İranın 2015-ci ildə 5+1 ölkələri ilə əldə etdiyi nüvə sazişi çərçivəsində bəzi öhdəliklərini dayandırdığını bildirib. İran rəsmisinin sözlərinə görə, qərar İran Milli Təhlükəsizlik Şurasından gələn əmrlə qəbul edilib.

İlk 60 gündə İranın 1-ci addımı hesab olunan əlavə zənginləşdirilmiş uran və ağır suyun satışı ilə bağlı öhdəliklər yerinə yetirilməyəcək.

# "Gallup International" Ermənistanı ən aqressiv ölkə adlandırdı

**Ermənistan aqressiv ölkələr arasında reytinqdə birinci yerdə qərarlaşıb. "Trend"in məlumatına görə, bu barədə "Gallup International" agentliyinin "Global Emotions" reytinqində deyilir.**



Qeyd olunur ki, dünyanın 140-dan çox ölkəsində keçirilmiş sorğuda gülüş, narahatlıq, aqressivlik, heyranlıq, təəccüb və digər emosiyalar barədə suallar verilib.

Sorğuya əsasən, Ermənistan əhalisinin 55 faizi daha çox əsəbiləşdiyini deyib.

**Bu reytinqdə ilk beşlikdə Ermənistandan sonra İraq, İran, Fələstin və Mərakeş qərarlaşıb.**

**İqtisadi müstəvidə aparılan islahatlar çərçivəsində xüsusi diqqət mərkəzində yer alan məqamlardan biri də şəffaflıq göstəricilərinin yüksəldilməsi, o cümlədən maliyyə əməliyyatlarının tam şəkildə rəsmiləşdirilməsidir. Bu məqsədlə nağdsız ödənişlərin həcminin genişləndirilməsi indi hökumətin əsas maraq dairəsindədir.**

# Azərbaycanın nağd puldan imtina strategiyası beynəlxalq müstəvilərdə də yer aldı



Qeyd edək ki, ölkədə nağdsız əməliyyatların həcminin artırılması üçün artıq müxtəlif addımlar atılır, o cümlədən stimullaşdırıcı tədbirlər görülür. Məsələn, cari ilin əvvəlindən Vergi Məcəlləsində qüvvəyə minmiş dəyişikliyə əsasən, pos-terminalla həyata keçirilən ödənişlərə görə sahibkarlara müəyyən güzəştlər verilib. Bu dəyişikliyə əsasən, pərakəndə satış qaydasında malların satışının həyata keçirilməsi üzrə ticarət fəaliyyəti ilə məşğul olan fərdi sahibkar tərəfindən büdcəyə ödənilməli olan gəlir vergisinin məbləği 3 il müddətinə 25 faizi həcmində azaldılır. Amma bunun üçün sahibkarın satışı pos-terminal vasiətsilə həyata keçirməsi mühüm şərtdir.

**Bu güzəştin alınması hüququ müəyyən edilərkən, vergi orqanında uçotda olan şəxslər tərəfindən pos-terminal vasitəsilə aparılan ödənişlərin məbləği nəzərə alınmır.**

Eləcə də, alıcı alınmış mallara görə ödənişi nağdsız qaydada edirsə, əlavə dəyər vergisindən (ƏDV) onun hesabına 15 faiz həcmində vəsait qaytarılır. Bütün bunlarda əsas məqsəd pos-terminaldan istifadəni stimullaşdırmaqla nağdsız dövriyyənin genişləndirilməsinə nail olmaqdır. Bu fonda atılan addımlar nəticəsində aparılan hesablamalar göstərir ki, qarşıdakı 5 ildə Azərbaycanda nağdsız ödənişlər 52 milyard manatadək artacaq. Həmin müddət ərzində isə nağd iqtisadiyyatın çəkisinin 34 faiz azaldılması planlaşdırılır. Bütün bunlar beynəlxalq miqyasda da diqqətlə izlənir, təqdir olunur. Hətta artıq məlumdur ki, "Visa" beynəlxalq kart təşkilatı ölkəmizdə rəqəmsal ödənişlərin inkişafı üzrə layihələrdə yaxından iştirak etmək niyyətindədir. "Visa" kart təşkilatının Şərqi Avropa, Mərkəzi Asiya və Cənub-Şərqi Avropa ərazisi üzrə 17 ölkədə "Visa" əməliyyatlarına rəhbərlik edən Vira Platonova qeyd edir ki, sürətli inkişaf edən bir ölkə kimi Azərbaycan təşkilat rəhbərliyinin diqqət mərkəzindədir.

**Onun sözlərinə görə, təşkilat ölkədə fəaliyyətini aktivləşdirmək, yeni innovativ ödəniş həllərini ölkəyə gətirmək, Mərkəzi Bankın rəhbərliyi altında həyata keçirilən rəqəmsal ödənişlərin inkişafı üzrə layihələrə dəstək vermək niyyətindədir.**

Vira Platonova onu da vurğulayır ki, Azərbaycanda nağdsız hesablaşmaların təşviqi başqa ölkələrə nümunə ola bilər: "Hazırda nağdsız hesablaşmalar proqramı çərçivəsində Maliyyə Bazarlarına Nəzarət Palatası, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Mərkəzi Bank, bir sıra banklar, başqa maliyyə qurumları ilə əməkdaşlıq edirik. Nağdsız ödəmələrin inkişafına gəlincə, bir neçə istiqamətdə işləyirik. Birincisi, qabaqcıl seqment üçün xüsusi təkliflər vasitəsilə daxili əməliyyatların payını artırmaqdır ki, nəticədə həm ölkə daxilində, həm də xaricdə nağdsız hesablaşmaların həcmi artacaq. Bu sıraya mükafat kartları ilə hesablaşanlar üçün endirimlər, təşviq proqramları kimi imtiyazlar aid edilir. İkinci istiqamət ödəmə qəbulu infrastrukturunun təkmilləşdirilməsini, nağdsız ödəmələrlə bağlı vərdişlərin yaranmasına rəvac verməyi ehtiva edir.

Məsələnin sosial tərəfini nəzərə almaqla dövlətin, habelə tərəfdaş bankların da dəstəyinə bel bağlayırıq. Bizim məlumatımıza görə, 2018-ci ildə Azərbaycanda "Visa" kartları ilə ticarət əməliyyatlarının həcmi 42 faiz, o cümlədən təmassız ödəmələrin həcmi 75 faizdən çox artıb. Onlayn köçürmələrini rahat və təhlükəsiz, bir düyməni basmaqla həyata keçirmək üçün hər bir istifadəçiyə şərait yaratmağı hədəfləyirik. Bunun üçün də bəzi variantlar təqdim edirik". Onun sözlərinə görə, Azərbaycanda ödəmə kartlar bazarı da dinamik inkişaf edir: "Visa Gear 2018" araşdırmasına əsasən, Azərbaycan 73 ölkə arasında 43-cü yerdədir, bir sıra göstəricilər üzrə artıma nail olub. Ən başlıcası təhlükəsiz elektron ödəmələr sisteminin yaradılması, internetə rahat girişin təmini, elektron ödəmələrdən maneəsiz istifadəyə şərait yaradan rəqəmsallaşma fəaliyyətləridir. Azərbaycan iki ildən bir tərtib edilən bu reytinqə ilk dəfədir salınıb, buraxılış portmanatlarının tətbiqi və təmassız ödəmələrin inkişaf etdirilməsi ilə gələn reytinqdə ölkənizin daha yüksək yer tutacağına inanıram. Bu gün dövlətin nağdsız ödəmələr sahəsində gördüyü işlər bir çox ölkələr üçün nümunə ola bilər. Azərbaycanda ödəmə kartları bazarının çox hərəkətli olduğunu söyləyə bilərəm. Hazırda köçürmələrin 18 faizi ticarət şəbəkəsinin payına düşür. Əksər istifadəçilərin pullarını kartdan çıxarıb nağd şəkildə alış-veriş etdiyi nəzərə alınsa, bu rəqəm pis deyil. Azərbaycanda dövriyyənin illik 42 faiz artdığını nəzərə alsaq, ölkə üçdörd ilə orta Avropa səviyyəsinə çıxa bilər. Deməli, nağdsız iqtisadiyyatın, yəni şəffaf iqtisadiyyatın bərqərar olmasını çox gözləmək lazım gəlməyəcək". Məhz bütün bunlar nağdsız ödəmələrlə bağlı görülən işlərə beynəlxalq marağı əhəmiyyətli dərəcədə artırır.

Onu da xatırladaq ki, ölkədə nağdsız ödəmələrin tətbiqi səviyyəsinin artırılması üçün ən mühüm sənədlərdən biri Mərkəzi Bank tərəfindən hazırlanan "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" hesab olunur. Sənədin əsas məqsədi iqtisadiyyatda nağdsız ödənişlərlə aparılan maliyyə əməliyyatlarının həcminin əhəmiyyətli dərəcədə genişlənməsi, nağd pul tədavülü ilə bağlı yaranan tranzaksiya xərclərinin azaldılmasıdır. Proqram bütövlükdə ölkənin nağdsız cəmiyyətə transformasiyasına dair yol xəritəsini ehtiva edir. Onun icrası ilə ilk növbədə "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə rəqəmsal ödənişlərin genişləndirilməsi ilə bağlı nəzərdə tutulan hədəflərə nail olunacaq.

**Ekspertlər bildirir ki, nağd iqtisadiyyatın azalması ilə iqtisadi subyektlər arasında maliyyə şəffaflığı artacaq, vergidən yayınma halları azalacaq. Bununla yanaşı, bank sektorunun maliyyə resurs bazası güclənəcək, elektron bank əməliyyatlarının çeşidi, əlçatanlığı və elektron bankçılıqdan istifadə edən əhalinin xüsusi çəkisi, elektron ticarətin həcmi artacaq. Ümumilikdə görülən işlər qısa müddətdə ölkəmizdə nağdsız cəmiyyətin əsaslarını yaratmağa, iqtisadi münasibətlərdə rəqəmsal transformasiyaya ciddi töhfə verəcək.**

***Tahir TAĞIYEV***

**Getdikcə bütün dünya gündəminin əsas mövzuları sırasında yer almağa başlayan mümkün ABŞ-İran savaşının regiona, o cümlədən Cənubi Qafqaza, konkret halda Azərbaycana təsiri də xüsusi maraq doğurmağa başlayıb. Artıq Rusiya hadisələrin inkişaf axarından ciddi narahatlığını ifadə edir. Kremldə bildirirlər ki, savaş başlasa, İrandan Qafqaza, Rusiyaya böyük köç başlanacaq. Məhz bu fonda Kreml ABŞ-İran münasibətlərinin hərbi müstəvidə həll edilməsinə qarşı olduğunu bildirir.**

# ABŞ - İran müharibəsinin Azərbaycana mümkün təsirləri ən narahat müzakirə mövzusu kimi...

## ”Azərbaycan var gücü ilə çalışır ki, yad savaşa cəlb olunmasın...”

Amma görünən budur ki, məsələnin hərbi həll ehtimalı getdikcə artır. Xüsusən də Fuceyra limanında baş vermiş tanker partlayışları ABŞ-a savaşa başlamaq üçün yeni imkanlar qazandırır. Belə ki, Birləşmiş Ərəb Əmirliklərinin xahişi əsasında Fuceyra limanında baş vermiş tanker partlayışlarını araşdıran ABŞ hərbi ekspertləri özlərinin yekun nəticələrini açıqlayıb. Məlumata görə, hərbi ekspertlər partlayışın arxasında İran və onun dəstəklədiyi qrupların dayandığını bildirib. Ekspertlərin fikrincə, İran neft tankerlərinə hücum üçün partlayıcı qurğulardan istifadə edib.

Bundan əlavə, Səudiyyə Ərəbistanında "Şərq-Qərb" boru kəmərinə dron hücumu təşkil edilib. Hücum nəticəsində 8 nömrəli stansiyada yanğın baş verib. Səudiyyə Ərəbistanının "Aramco" şirkəti zərərin hesablanması və təmir işləri ilə əlaqədar olaraq kəmər vasitəsilə neft verilməsini dayandırıb. Şirkət baş verənləri "qorxaq hücum, terakt və diversiya" adlandırıb. Bu hücumda da İran ittiham olunur. ABŞ isə bəyan edib ki, müttəfiqlərinə qarşı hansısa fəaliyyət onun İrana qarşı savaşa başlamasına gətirib çıxaracaq. Qeyd edək ki, Amerika Silahlı Qüvvələri Mərkəzi Komandanlığı (CENTKOM) da ABŞ ordusunun İran tərəfindən gözlənilən potensial təhlükə səbəbindən İraq və Suriyada həyəcan səviyyəsini artırdığını açıqlayıb. Qurumun məlumatında bildirilir: "Mərkəzi komandanlıq "Sarsılmaz qətiyyət" əməliyyatı ilə koordinasiya şəklində İraq və Suriyadakı əməliyyatlarda iştirak edən bütün qüvvələr üçün güc mövqeyi səviyyəsini artırıb. Əməliyyat yüksək həyəcan səviyyəsindədir və biz, ehtimal ki, bilavasitə İraqdakı ABŞ qüvvələrinə qarşı gözlənilən təhlükələri yaxından izləyirik".

Yuxarıda qeyd olunduğu kimi, mümkün ABŞ-İran savaşının Qafqaza təsiri də xüsusi maraq doğurur. Bu xüsusda rus ekspert Stanislav Tarasov "news-front.info" portalında maraqlı yazı dərc edib. Burada qeyd olunur ki, Qafqazda mühüm dövlət olan Azərbaycan tamamilə anlaşılan səbəblərdən bu gün ciddi diplomatik səylər göstərir ki, yad savaşa çəkilməsin. Amma onun sərhədləri yaxınlığında savaş ehtimalı sürətlə yüksəlir. Yazıda daha sonra deyilir: "Doğrudan da, Bakının hələ bir neçə il qabaq ən qorxunc yuxusuna da girə bilməyəcək "güclü xarici oyunçuların paradı" ilə işi olmağa başlayır. Amerikanın "Eurasianet" nəşrinin dəyərləndirməsinə görə, Azərbaycan obyektiv var olan tarixi, coğrafi və geopolitik şərtlər üzündən hadisələrin yaxından iştirakçısına çevrilir.. Bakı buna görə də, hansı siyasətə tərəfdarlığından asılı olmayaraq, hadisələr burulğanına çəkilə bilər. Özəlliklə ABŞ-ın İrana hərbi zərbəsi və yaxud İranı Suriyaya döndərmək qəsdilə Vaşinqtonun Tehrana qarşı quraşdırma başqa ssenari hərəkətlərindən istifadə etməyə başlayacağı halda. ABŞ-ın BMT-dəki daimi təmsilçisi Nikki Heyli hələ 2018-ci ilin başlanğıcında İran etirazları ilə bağlı BMT TŞ-nin toplantısı ərəfəsində bundan açıq danışıb. Lakin ABŞ və İran arasında mümkün savaşın necə görünəcəyini söyləmək hələlik çətindir.

Ekspertlərin dəyərlənməsinə görə, indi durum "savaşqabağı" mərhələyə meyllənir, çünki amerikalılar Fars körfəzi zonasında hərbi iştirakı gücləndirir. Mümkün hərbi zərbənin cizgiləri ixtisaslaşmış və açıq mətbuatda çoxdan yazılıb: Hava Hücumundan Müdafiə obyektlərinə, döyüşü yönəltmə və rabitə məntəqələrinə nöqtə zərbələri, bundan sonra hərbi infrastruktur dağıdılır. İraqda və ya Yuqoslaviyada belə olub. Sonra isə ölkənin hərbi və siyasi rəhbərliyini boyun əyməyə vadar edirlər. Fransanın "Le Figaro" qəzeti hesab edir ki, hər şey İranın güney sərhədlərində məhəlli silahlı toqquşmadan başlana bilər. Fars körfəzi sularında durumun nəzarət olunmayan inkişafı mümkündür, bundan sonra, Əfqanıstanda tətbiq edildiyi kimi, yerli etnik "kollaborantlar"ın və "demokratların və başqa müxalif-terrorçu birləşmələrin" silahlı dəstələri fəallaşa bilər. Tehran bütün bunlara qarşı dura bilərmi? Hərbi, sənaye və özəllikdə mədəni baxımdan - şübhəsiz. Amma ABŞ prezidenti Donald Trampın bildirdiyi kimi, İran tərəfi, o cümlədən münaqişəli daxili-siyasi durum nəzərə alınmaqla "böyük problemlər" qazanmaq risqinə gedir. Deməli, hətta ərazisi İrana qarşı fəal əməliyyatlar üçün meydan kimi istifadə olunmayacaqsa da, Bakı nəyə hazır olmalıdır?

İranlı qaçqınlar, birinci növbədə etnik azərbaycanlılar problemi meydana çıxacaq. Ekspert dəyərləndirmələrinə görə, onlar 5-10 milyona yaxın adamdır. Onlar təkcə Azərbaycan ərazisinə deyil, İran-Qarabağ sərhədindən indi Ermənistanın nəzarət etdiyi bölgələrə keçəcəklər. Qaçqınların belə axınını durdurmaq mümkünsüzdür, bunu Azərbaycanda da yaxşı başa düşürlər. O biri yandan, Rusiyanın məşhur araşdırıcısı Sergey Markedonovun güman etdiyi kimi, "ABŞ İranda tammiqyaslı, ya da məhdud "demokratikləşmə" apararsa (məsələn, İran Azərbaycanının "demokratikləşməsi" vasitəsilə), Yaxın Şərq münaqişəsinin Cənubi Qafqaza keçmək təhlükəsi xeyli gerçək ola bilər".

Onun sözlərinə görə, problemlər həm də ona görə meydana çıxacaq ki, "sovetsonrası Azərbaycan elitası (ABŞ və İsrailin ənənəvi müttəfiqi) Türkiyəyə və Birləşmiş Ştatlara yön götürüb, Azərbaycan liderləri ölkədəki radikal islamçılara dəstəyə və bu dövlətdə dünyəvi hakimiyyət modelini islam dövlətilə əvəzləmək cəhdlərinə görə İranı həmişə tənqid ediblər". Unutmaq olmaz ki, İranın azərbaycanlı əhalisi Azərbaycanın öz əhalisinin sayını üç dəfə üstələyir, Azərbaycan Respublikasının rəsmi ideologiyası və tarixşünaslığında isə sünicəsinə iki yerə bölünmüş Azərbaycana vahid tarixi ərazi kimi baxış üstünlük təşkil edir. Belə ki, Azərbaycan Amerika-İran qarşıdurmasının yayıldığı fonda İrana münasibətdə Ermənistan tərəfi üçün xeyirxah Tehranın mövqeyini nəzərə almaqla təsadüfən incə siyasət yürütməyə başlamayıb. Axı geopolitik qeyri-müəyyənliklər və Bakıya tabe olmayan amillər üzündən Azərbaycan və İranın birgə bölgə layihələri, birinci növbədə "Şimal-Cənub" layihəsi pozulacaq. Bakı həm xam neft, təbii qaz ixracatçısı, həm də Naxçıvan anklavında daxili istehlak üçün İran qazının idxalatçısı kimi çətin duruma düşə bilər. Amma İrəvan da İran qazından olacaq, Tehranla münasibət onun üçün həyat önəmlidir, çünki bu ölkənin sərhədləri şərqdə (Azərbaycanla) və qərbdə (Türkiyə ilə) bağlıdır. Hadisələrin sonrakı inkişafına gəlincə, bunun gedişi daha çox bölgədə əsas xarici oyunçuların maraqlarının nə qədər üst-üstə düşüb-düşməyəcəyindən asılı olacaq. ABŞ İran yönündə "qara iş"in başlanğıcını törətmək istəyi sərgiləyir, hərəkətlənmək niyyətində olduğu "özgə əl" axtarır. Rusiyaya gəlincə, "tarixi manеələr"ə bir də ilişməyinə dəyməz, Cənubi Qafqazda öz oyunumuzu oynamaqla ABŞ-a münasibətdə yetərincə müstəqil davranmaq gərəkdir. Bu bölgədə ciddi geopolitik dəyişikliklər dönəmi yaxınlaşır".




**Qafqazda geosiyasi durum dəyişir**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan Ermənistanı destabilizasiya mənbəyi kimi bütün dünyaya tanıda bildi...

*İndi tək Azərbaycan və Türkiyə yox, ABŞ və Rusiya da təzyiq edir*

**Mövcud reallıq göstərir ki, bu gün işğalçı Ermənistan böyük güclərin məngənəsində sıxılmaqdadır. Buna əsas səbəb isə İrəvanın xarici siyasətdə yol verdiyi çoxsaylı səhvlər, həmçinin Azərbaycanın diplomatik gedişləri sayəsində Ermənistanın hədəf halına gəlməsidir. Çünki Azərbaycan artıq Ermənistanı destabilizasiya mənbəyi kimi bütün dünyaya tanıda bilib.**

Digər tərəfdən, bölgədə Rusiya və ABŞ-ın Ermənistana münasibətlərində son bir ildə ciddi dəyişikliklər qeydə alınır. Ekspertlər isə vurğulayır ki, bütün bunlar Dağlıq Qarabağ münaqişəsinin həllinə də mütləq mənada öz təsirini göstərəcək. Çünki regionda tamam fərqli geosiyasi şərait formalaşır. İşğalçı Ermənistan təkcə Azərbaycan və onun müttəfiqi olan Türkiyənin yox, eyni zamanda Rusiya və ABŞ-ın da təzyiqlərinə məruz qalır. Erməni mediası bütün bunların ölkə üçün çox ciddi nəticələr doğuracağını yazaraq, İrəvanın bölgədə daha zəif bir ölkəyə çevriləcəyini diqqətə çatdırır. Baş verənlərlə bağlı "İravnuk" qəzeti qeyd edir: "Rusiya ilə münasibətlər xeyli kəskinləşib. Rəsmi səviyyədə etiraf edilməsə də, münasibətlərdə böhran hökm sürür. İrəvan tərəfindən hələ də edilən cəhdlərə rəğmən, Rusiya və Ermənistan qazın qiyməti məsələsində razılığa gələ bilməyib. Ermənistan iqtisadiyyatının digər sahələri də Rusiyanın nəzarətindədir. Ümumiyyətlə, Ermənistanın iqtisadi sahədə heç bir manevr imkanı yoxdur. Düzdür, Qərb baş nazir Nikol Paşinyana maliyyə və siyasi dəstək verəcəyini bildirərək, onun Rusiyanın orbitindən çıxması üçün vədlər verib. Kreml isə çalışır ki, Paşinyanın qərbpərəst siyasətinin qarşısını alsın. Bu fonda da Ermənistanda siyasi-iqtisadi vəziyyət gərgin olaraq qalır. Bu baxımdan İrəvanın Moskvaya qarşı demarşı ona baha başa gələ bilər. Yaddan çıxmamalıdır ki, Rusiya hələ Qarabağ kartından istifadə etməyib. Paşinyan Qərbə doğru meyllənməyə davam edərsə, onu və Ermənistanı Qarabağda yeni sürprizlər gözləyə bilər. Hələlik isə Rusiya yalnız təzyiqləri artırmaqla məşğuldur".

Yaranmış vəziyyətdə İrəvanın Qərbə olan ümidləri də hansısa nəticə vermir. Xüsusən də Ermənistanın Rusiyaya yarınmaq cəhdləri, İranla işbirliyi ABŞ-da ciddi narazılıqla qarşılanır. Bunu Amerika Tədqiqatları Erməni Mərkəzinin direktoru Suren Sarkisyan da təsdiq edir. Onun sözlərinə görə, ABŞ ümid edirdi ki, Ermənistanda baş verənlər Ermənistan-ABŞ münasibətlərinə müsbət təsir göstərəcək: "Amma İrəvanın gedişləri üzündən iki ölkənin münasibətlərində açılan pəncərə artıq qapadılıb. ABŞ-la münasibətlərə təsir edən məqamlardan biri də Paşinyanın özünü ABŞ-ı ən çox tənqid edən lider adlandırmasıdır. ABŞ-ın prioritetləri sırasında artıq Ermənistan yoxdur. Amma Azərbaycanla bağlı fərqli vəziyyət hökm sürür. ABŞ-ın bu ölkə ilə əməkdaşlığını daha da dərinləşdirdiyini görürük".

Karnegi fondunun əməkdaşı, amerikalı ekspert Pol Stronski də ABŞ-ın İrəvandan narazı qaldığını vurğulayır: "Paşinyan özü də ABŞ-dan narazı qaldığını bildirir. Amma şikayət edib ittiham etmək əvəzinə, Paşinyan nəhayət Ermənistan-ABŞ münasibətlərinin yaxşılaşdırılması istiqamətində iş aparmağa başlamalı idi. Bunu etmir və vəziyyəti daha da pisləşdirir. Xatırladım ki, bundan əvvəl Rusiyanın mətbuat orqanlarından birinə verdiyi müsahibəsində Paşinyan, guya ABŞ tərəfini ən çox tənqid edən Ermənistan rəhbəri olduğunu iddia edib. ABŞ ümumiyyətlə Ermənistan üçün müsbət tərəfdaş olub. ABŞ və Ermənistan müqavilələli müttəfiq deyillər, eyni iqtisadi zonada da yerləşmirlər. Lakin 1991-ci ildən başlayaraq Ermənistana yardım şəklində 1 milyard dollar verilib. Ermənistan birnəfəsə ABŞ-dan ən çox yardım alan ölkələrdən biridir. ABŞ bu yardımı edərkən, digər ölkələrdən fərqli olaraq, onu hər hansı siyasi, iqtisadi və ya təhlükəsizlik bloklarına qoşulmağa vadar etmir. Bu 1 milyard dollar amerikalı vergi ödəyicilərinin hesabına formalaşan və rəsmi kanallarla gələn yardımdır. Amerikadakı fond və xeyriyyə təşkilatları da Ermənistana yardımlar edir. Birləşmiş Ştatlarda Paşinyanın tənqidlərini eşidirlər. Bu addım, onun özü kimi, insanların da Ermənistanı dəstəkləməsi məsələsini mürəkkəbləşdirir".

Ermənistanla münasibətlərdə hansı problemlərin olmasına və ikitərəfli münasibətlərin inkişafı üçün hansı tədbirlərin görülməsinə zərurət olduğuna gəldikdə isə, Stronski qeyd edib ki, Ermənistan-ABŞ münasibətlərində zidiyyət var: "Bir çox dövlətlərin ziddiyyətləri var, Ermənistan baxımından Tramp administrasiyasının İranla bağlı kəskin yanaşması narahatlıq mövzusu ola bilər. Bunun İranla yaxşı münasibətlər saxlamağa məcbur olan Ermənistan üçün çətinliklər yaratdığı anlaşılandır. ABŞ baxımından isə, ermənilərdən ibarət hərbi heyətin Suriyada yerləşdirilməsi narahatlığa əsas verən səbəblərdən biridir. ABŞ və Rusiya Suriyada qarşıdurma həddinə çatıb. Buna görə də, ABŞ-da hazırlıq keçən minalardan təmizləmə üzrə mütəxəssislərin Rusiyaya dəstək məqsədilə Suriyada yerləşdirilməsi Vaşinqtonda narahatlığa səbəb olub".

Paşinyanın indiki mövqeyinin ikitərəfli münasibətlərə necə təsir edəcəyinə və ya Birləşmiş Ştatlarda necə qarşılanacağına gəldikdə isə, o qeyd edib ki, bu addım Ermənistan-ABŞ münasibətləri üçün faydalı deyil: "Paşinyan, nəhayət, Ermənistan-ABŞ münasibətlərinin yaxşılaşdırılması istiqamətində iş aparmağa başlamalıdır. İran istiqamətində Tramp administrasiyasının fövqəladə şəkildə cəmləşməsini İrəvan nəzərə almalıdır". Maraqlıdır ki, britaniyalı analitik Neyl Makfarleyn də Ermənistanın Qərbin gözündən düşdüyünü xüsusi olaraq vurğulayır. Onun sözlərinə görə, İrəvan təkcə ABŞ-da yox, Avropa İttifaqında da məyusluq yaradıb: "Avropa İttifaqı və ABŞ Ermənistanın ən ciddi maliyyə tərəfdaşı olsa da, Ermənistan hərbi, siyasi və iqtisadi birlikləri Rusiya ilə təşkil edir. Buna görə də gözləntilər tarazlaşdırılmış və siyasi baxışlara müvafiq olmalıdır". Neyl Makfarleyn qeyd edib ki, istənilən münasibət hər iki tərəfin gözləntiləri və siyasi məqsədləri zərurəti üzərində qurulur və siyasi qərar olmadan hər hansı vəziyyət münasibətlərə təsir edə bilməz. Onun sözlərinə görə, Qərb sadəcə demokratik islahatların həyata keçirilməsinə, Qərb dəyərlərinin tətbiq edilməsi proseslərinə və bu layihələr hazır olduqda yardım edir: "Ermənistanın yeni statusu daxili dəyişikliklərlə təsdiqlənməli və möhkəmlənməlidir. Qərb Ermənistana təqdim etdiyi layihələri yenidən nəzərdən keçirməlidir. Eyni hal ABŞ-la ikitərəfli münasibətlərdə də özünü büruzə verməlidir. Həmçinin nəzərə alınmaldır ki, Avropa İttifaqı və ABŞ Ermənistanın ən ciddi maliyyə tərəfdaşı olsa da, Ermənistan hərbi, siyasi və iqtisadi birlikləri Rusiya ilə təşkil edir. Buna görə də gözləntilər tarazlaşdırılmış və siyasi baxışlara müvafiq olmalıdır. ABŞ-la yeni ikitərəfli münasibətlərin strateji dialoq şəklində qurulması yaxşı haldır. Bu münasibətlərin hər hansı şəkildə pozulmasına Rusiya Federasiyası ilə ABŞ-ın qarşıdurması da səbəb olur. Lakin bəzi hallarda tərəflərdən birinin tutduğu mövqe, o cümlədən Ermənistanın Rusiyaya dəstək olmaqla Suriyaya hərbi yardım göndərməsi faktdır. Bir sözlə, ikitərəfli münasibətlərdə mövcud çətinlikləri nəzərə almaqla münasibətlərin yaradılmasına səy göstərilməlidir. Amma erməni ətrəfində biz bunu müşahidə etmirik və belə olduqda Qərb İrəvandan üz döndərir".

İndi tədricən həm Rusiyanın, həm də Qərbin dəstəyindən məhrum olan Ermənistanın regionda mövqelərinin daha zəif hala gəlməsi qaçılmaz sayılır. Məhz bu da Qarabağ münaqişəsinin həllini tezləşdirə biləcək faktorlardan sayılır. Çünki Ermənistanın bu münaqişənin həllini indiyə qədər uzatması yalnız xaricdən aldığı dəstək sayəsində mümkün olub. Amma artıq bu dəstək tədricən aradan qalxır və belə şəraitdə Azərbaycan üçün Qarabağ münaqişəsinin həlli daha asan hala gəlir.

Digər tərəfdən yayılan məlumata görə, tezliklə ABŞ-da Azərbaycan və Ermənistan rəhbərlərinin, eləcə də xarici işlər nazirlərinin görüşü təşkil olunacaq. Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan da faktı təsdiq edib: "Növbəti mərhələnin baş tutması üçün müəyyən dəqiqləşdirmələri gözləyirik. Bu görüşün baş tutması üçün görüşü təşkil edən tərəf vaxtı və yeri dəqiqləşdirib razılaşdırmalıdır. Prinsip etibarilə heç bir problem yoxdur. Görüşün məhz Vaşinqtonda baş tutması gözlənir. Təşkilatçıdan qabaq bu barədə fikir bildirməyi uyğun görmürəm. Brüsseldə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla görüşdüm. Bu cür tədbirlərdə görüşmələr normal əlamətdir. Hər bir görüşdə hər hansı məqamların, məsələlərin müzakirə edilməsi mütləq deyil". Amma hesab edilir ki, görüşü təşkil edən ABŞ-ın Ermənistanla münasibətlərinin pisləşməsi Azərbaycanın lehinə işləyən amildir. Çünki bu şəraitdə ABŞ-ın Azərbaycana daha çox dəstək verməsi gözlənir.

Digər tərəfdən, yuxarıda qeyd olunduğu kimi, yaranmış vəziyyətdə danışıqlar nəticə verməsə, ABŞ və Rusiya kimi ölkələr Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi üçün hərbi əmliyyatlara başlamasına hansısa maneə yaratmayacaq. Erməni politoloq Qrant Məlik-Şahnazaryan da belə vəziyyətdən Azərbaycanın istifadə edə biləcəyindən narahatlıq ifadə edib: "Azərbaycan Qarabağ məsələsini hərb yolu ilə həll edəcəyini gizlətmir. Bunun qarşısını alacaq qüvvə də yoxdur. Belə durumda bizdə hərbi qulluqçular mövqelərin bir çoxunun təminatının həyata keçirilməsinin təhlükə altına düşə biləcəyindən, bəzi mövqeləri isə ümumiyyətlə itirə biləcəklərindən narahat olduqlarını bildirir".

Bir neçə gün öncə Qarabağda olduğunu qeyd edən Şahnazaryan bir sıra hərbçilərlə görüşüb. Söhbət etdiyi hərbçilərin hamısı Azərbaycan ordusunun erməni mövqelərinə yaxın ərazilərdə mühəndis inşaat və bərkitmə işləri aparmasından narahat olduğunu vurğulayıb: "Bir daha təkrar edirəm ki, hərbi qulluqçular mövqelərin bir çoxunun təminatının həyata keçirilməsinin təhlükə altına düşə biləcəyini, bəzi mövqeləri isə ümumiyyətlə itirə biləcəklərindən narahat olduqlarını bildirdilər. Bu barədə şəkilləri də gördüm. Bunu Paşinyanın Əliyevlə görüşünün nəticəsi hesab edirəm. Budur, Ermənistanda zirehli döyüş texnikasını məhv edirik. Mən bundan çox narahatam". Beləliklə, yaranmış vəziyyət Qarabağ məsələsində yaxın tezlikdə müəyyən yeniliklərin olacağını istisna etmir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Azərbaycan əhalisinin sağlamlığının qorunması dövlətimizin daxili siyasətinin prioritet istiqamətidir. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də ardıcıl və uğurlu islahatlar aparılır. Bu islahatların ən mühüm tərkib hissəsi vətəndaşlarımıza göstərilən səhiyyənin idarə olunması və maliyyələşdirilməsinin optimallığını təmin edəcək icbari tibbi sığorta sisteminin qurulmasıdır.**

# Azərbaycan əhalisinin təxminən yarısı məcburi tibbi sığorta haqqı ödəməyəcək...

***Rasif Bağırov:** "İcbari tibbi sığortanın tətbiqi genofondumuzun xeyrinə olacaq"*



*"Xarici ölkələrlə müqayisədə 2020-ci ildə Azərbaycanda tətbiq olunacaq icbari tibbi sığortanın əhatə dairəsi daha genişdir"*

İcbari tibbi sığorta dövlət sosial sığorta sisteminin ən mühüm tərkib hissəsi olub, xüsusi tibbi və iqtisadi əhəmiyyətə malikdir. Belə ki, bir çox inkişaf etmiş ölkədə bu model geniş tətbiq olunaraq uğurlu nəticələr əldə edilib. Xatırladaq ki, respublikamızda "Tibb sığorta haqqında" Qanun 28 oktyabr 1999-cu ildə qəbul olunub və bununla əlaqədar bir neçə ildən sonra, daha dəqiq desək, 2008-ci ildə Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta Agentliyi yaradılması haqqında Prezident tərəfindən sərəncam imzalanıb. Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməkdən ötrü İcbari Tibbi Sığorta haqqında Tədbirlər planı təsdiq edib. Uzun müddətdir hər kəsin səbrsizliklə gözlədiyi icbari tibbi sığorta sistemi gələn il tətbiq olunacaq. Azərbaycanda ölkə əhalisinin 45 faizini təşkil edən uşaqlar, tələbələr, pensiyaçılar, sosial müavinət və ünvanlı sosial yardım alan şəxslər, hamilə və sosial məzuniyyətdə olan qadınlar üçün sığorta haqqının dövlət büdcəsi tərəfindən ödənilməsi nəzərdə tutulub.

Bunu "Xalq qəzeti"nə müsahibəsində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev deyib. O qeyd edib ki, 2020-ci il 1 yanvar tarixində qüvvəyə minəcək "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, icbari tibbi sığortanın xidmətlər zərfi iki hissədən ibarət olacaq: baza və əlavə hissə. "Baza hissəyə ilkin səhiyyə xidməti, təcili və təxirəsalınmaz tibbi yardım xidməti, əlavə hissəyə isə ixtisaslaşdırılmış tibbi yardım aiddir. Baza hissədən Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında daimi və ya müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istifadə edə bilərlər. Baza hissədən istifadə pulsuzdur və bu xidmətlər üzrə hər il adambaşına 29 manat dövlət büdcəsi hesabına ödəniləcək. Xidmətlər zərfinin əlavə hissəsinə aid olan ixtisaslaşdırılmış tibbi yardımdan istifadə etmək üçün isə icbari tibbi sığorta haqqı ödənilməlidir. Burada bir məqamı qeyd edim ki, ölkə əhalisinin 45 faizini təşkil edən uşaqlar, tələbələr, pensiyaçılar, sosial müavinət və ünvanlı sosial yardım alan şəxslər, hamilə və sosial məzuniyyətdə olan qadınlar (Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq bağlanmış və hüquqi qüvvəyə minmiş əmək müqaviləsi və ya Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq mülki-hüquqi müqavilə əsasında işləmədiyi və sahibkarlıq fəaliyyəti ilə məşğul olmadığı hallarda) üçün sığorta haqqının dövlət büdcəsi tərəfindən ödənilməsi nəzərdə tutulub".

2020-ci il yanvarın 1-dən icbari tibbi sığortanın tətbiqindən əhalinin aztəminatlı təbəqələrinin, tələbə, hamilə və sosial məzuniyyətdə olan qadınların yararlanacağı müsbət qarşılanır.

**Tibbi ekspert Rasif Bağırov bizimlə söhbətində bildirdi ki, respublikamızda iqtisadiyyatın bütün sahələrində olduğu kimi, idarəetmənin səhiyyə sahəsində bu cür islahatlar vacibdir:** "İcbari tibbi sığortanın tətbiqi genofondumuzun xeyrinə olacaq. Vətəndaşlar ciblərində pulla xəstəxanaya getməyəcəklər. Biləcəklər ki, onlara göstərilən xidmətlər pulsuzdur, əvəzi dövlət tərəfindən ödənilir. Bu da aztəminatlı əhalinin sosial durumuna müsbət təsir göstərəcək və ən əsası onların sağlam olmasına səbəb olacaq".

Həmsöhbətimiz hesab edir ki, icbari tibbi sığortanın tətbiqi insanlara yalnız fayda verə bilər: "Azərbaycanda tibbi sığortaya keçməyin bir neçə özəlliyi olmalıdır. Ölkədə səhiyyə ayrılmalarının adambaşına düşən payı Avropa ölkələri ilə adekvat deyil. Ona görə ilk növbədə tibbi sığortanın əhatə edəcəyi sahələr və hansı xidmətlərin vətəndaşların boynuna qoyulacağı araşdırılmalıdır".

Ekspertin sözlərinə görə, icbari tibbi sığorta bir sıra xarici ölkələrdə tətbiq olunub: "Məsələn, Türkiyə Respublikasında 30 il axtarışlardan sonra, nəhayət, 2003-cü ildən başlayaraq səhiyyənin maliyyələşdirilməsi və səhiyyə sisteminin genişmiqyaslı islahatları həyata keçirilib. Türkiyədə ən həssas təbəqələrin, məsələn, özünü maliyyə baxımından təmin edə bilməyən şəxslərin, 18 yaşına qədər uşaqların, vətəndaşlığı olmayan səxşlərin və qaçqınların sığorta haqları hökumət tərəfindən ödənilir. Moldova Respublikasında 1998-ci ildə "İcbari tibbi sığorta haqqında" Qanun qəbul edilib, amma ayrı-ayrı rayonlarda eksperiment keçirməklə, 2004-cü il yanvarın 1-dən ölkə səviyyəsində icbari tibbi sığortanın tətbiqinə başlanıb. Moldova Respublikasında sığorta haqları 8 faiz təşkil edir ki, bunun da 4 faizini işəgötürən və 4 faizini isə işçilər ödəyirlər. Xarici ölkələrlə müqayisədə 2020-ci ildə Azərbaycanda tətbiq olunacaq icbari tibbi sığortanın əhatə dairəsi daha genişdir. Burada tək əhalinin aztəminatlı təbəqəsi deyil, tələbə, uşaqlar, hamilələr və pensiyaçılar da icbari tibbi sığortadan yararlanacaqlar".

***Günel CƏLİLOVA***



# 1, 2 və 3-cü kateqoriya əlillik modeli beynəlxalq təcrübəyə uyğun deyilsə - Azərbaycan alternativ model axtarışında...

***Davud Rəhimli:** "Əlillik meyarı sağlamlığını itirmiş şəxsin tək xəstəliyinə görə deyil, funksional bacarıqlarının itirilməsinə görə təyin olunacaq"*

**Ölkəmizdə ən ciddi problemlərdən biri sağlamlığını itirmiş əlil vətəndaşlarımızın üzləşdiyi çətinliklərdir. Problemin önəmli tərəfi isə əlillik dərəcəsi almaq istəyən insanlarla bağlıdır. Son illər Azərbaycanda əlillik dərəcələrinin təyin olunması məsələsi üzrə müvafiq islahatlar aparılsa da, mövcud sahədə xeyli neqativ hal müşahidə edilməkdədir.**

Bu sahədə yaşanan problemləri həll etmək üçün əlilliyin təyin edilməsi ilə bağlı yeni meyarlar hazırlanacaq.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev media nümayəndələrinə açıqlamasında deyib ki, mövcud I, II və III qruplar üzrə əlillik meyarları beynəlxalq təcrübəyə uyğun gəlmir. Nazir bildirib ki, yeni meyarlar 1000-dən artıq xəstəliyi əhatə edir. Xəstəliyin 6-7 kriteriya üzrə təsir faizi müəyyən edilir, bunun əsasında isə xəstəliyin həyata təsir faizi ölçüləcək və əlillik dərəcəsi müəyyən olunacaq. Bu kriteriyalar Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin mütəxəssisləri tərəfindən hazırlanıb. Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən isə ekspertiza edilib.

Qeyd edək ki, yaxın günlərdə qanunvericilik paketi Milli Məclisə təqdim ediləcək.

Maraqlıdır, I, II və III qruplar üzrə əlillik dərəcəsi hansı meyar əsasında hazırlanmışdı ki, beynəlxalq dərəcəyə uyğun deyil? Hazırlanacaq yeni meyarlar hansı mexanizm əsasında hazırlanacaq?

Azərbaycan Respublikası Əlil Təşkilatları İttifaqının Prezidenti Davud Rəhimli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, əvvəllər əlilliyi olan insanlar əlillik dərəcəsi almaq üçün müəyyən prosedurlardan keçməli idilər. Əlillik meyarının təyin olunması üçün sənədlər Tibbi Sosial Ekspert Komissiyasına təqdim olunmalı idi. Son zamanlar isə bu proses elektronlaşdı.

Həmsöhbətimizin sözlərinə görə, xəstəliyin dərəcəsinə görə əlilliyin meyarı təyin olunur. Ancaq beynəlxalq təsnifatda isə əlillik meyarının təyin olunması tək xəstəliyə görə deyil, eyni zamanda, onların hərəkət qabiliyyətinin hansı səviyyədə məhdud olması ilə ölçülür.

Şəxsin hansı faiz dərəcəsində əmək qabiliyyətini itirməsi təyin olunandan sonra ona əlillik meyarı təyin edilir. Əlillik meyarı sağlamlığını itirmiş şəxsin tək xəstəliyinə görə deyil, funksional bacarıqlarının itirilməsinə görə təyin olunacaq.

***Günel CƏLİLOVA***

# Ayın 29-da Bakıda "Arsenal" - "Çelsi" oyununu idarə edəcək futbol hakimi Rokki kimdir?

**Bakıda "Arsenal" və "Çelsi" arasında keçiriləcək Avropa Liqasının final oyununun hakimləri bəlli olub. Qarşılaşmanı italiyalı referi Canluka Rokki idarə edəcək. Yan hakimlər Filippo Meli və Lorenso Mnaqanelli, ehtiyat hakim - Daniele Orsato, videoköməkçi hakim isə Massimiliano İrratidir (hamısı İtaliyadandır).**



*"O həm də uğurlu iş adamıdır"*

## *Kənan Məstəliyev: "Adı İtaliyadakı futbol korrupsiyası qalmaqalında çəkilsə də..."*

Qeyd edək ki, final oyunu mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək. Qarşılaşma saat 23:00-da başlayacaq. Oyunun hakimi Canluka Rokkinin necə hakim olduğu, onun ingilis klublarına münasibətilə bağlı kiçik araşdırma aparmaq qərarına gəldik. Hakim barədə internet resurslarında elə də çox məlumat yoxdur. Yalnız futbolla bağlı olan qurumların saytında onun barədə bəzi statistik məlumatlara rast gəlmək olar.

45 yaşlı italiyalı hakim 2008-ci ildən beynəlxalq oyunları idarə edir. O, İtaliyanın Florensiya şəhərində doğulub. 2000-ci ildə İtaliyanın sayca üçüncü liqası olan "Seriya C"də 38 oyuna təyinat alıb. 2010-cu ildə "Seriya A" və "Seriya B" oyunlarını idarə edib. 2008-2009 mövsümündə UEFA Kubokuna, 2010-2011 futbol mövsümündən etibarən isə UEFA Çempionlar Liqası oyunlarına təyinat alır. Avro-2012-nin seçmə mərhələsində 3 oyun idarə etdikdən sonra, 2012-ci ildə Yay Olimpiya Oyunlarına dəvət alıb. 2018-ci ildə FİFA Dünya Kubokunun final mərhələsində oyunlara təyinat alıb.

**Futbol mütəxəssisi Kənan Məstəliyev qəzetimizə açıqlamasında Rokkini belə şərh etdi:** "Bilirsiniz ki, Avropa Liqasının final oyununun Bakıda keçirilməsi ölkəmizin idman aləmi üçün böyük yenilikdir. Bu baxımdan da hamı oyunun necə, hansı şəraitdə keçiriləcəyi, təhlükəsizlik tədbirləri və başqa detallarla bağlı müfəssəl məlumat almağa çalışır. Təbii ki, bu sıraya oyunu idarə edəcək hakimlər barədə məlumatlar da daxildir. Artıq məlum olub ki, final oyununun hakimlərinin hamısı İtaliya təmsilçisi olacaq. Baş hakim Canluka Rokki çox tanınmışdır. Çempionlar Liqasının, UEFA Kubokunun oyunlarını, Avropa Liqasının superkuboku matçlarını idarə edib. Karyerasına İtaliyanın aşağı divizionunda təmsil olunan komandalarının oyunlarını yönəltməklə başlayıb. Sonra İtaliyanın "A" seriyasının oyunlarını idarə edib. 2018-ci ildə İtaliyanın ən yaxşı referi adına layiq görülüb. Yetərincə tecrübəsi olan, dünyanın etibarlı hakimlərindən biri kimi xarakterizə olunur. Keçən il Rusiyada keçirilən Dünya çempionatında 3 oyun idarə edib. Bunlar böyük göstəricilərdir. Cəzaya meylli hakim deyil. Arsenalındakı qırmızı və sarı vərəqlərinin sayı azdır. Futbolçulara yaxşı oyun göstərməyə imkan verən hakimdir. Bu faktor da yaxşıdır ki, biz Bakıda gözəl futbol seyr edə biləcəyik. Rokki ingilis klublarının oyunlarını çox idarə edib. İngilis yığmasının oyununu da idarə edib. Həmin oyunda ingilislər məğlub olmayıb. "Çelsi" və "Arsenal"ın da ayrı-ayrılıqda oyunlarına hakimlik edib. "Çelsi"nin iki oyununa çıxıb və onların hər ikisində ingilis klubu qalib gəlib. "Arsenal"ın isə 5 oyununu idarə edib. Həmin oyunların 2-si qələbə, 2-si məğlubiyyət, 1-i isə heç-heçə ilə nəticələnib. Rokkinin 45 yaşı var, artıq təqaüdə çıxmaq yaşına çatıb. Bəlkə də bu onun yönətəcəyi son final görüşməsi olacaq. Hakim kimi adı böyük qalmaqallarda çəkilməyib. 2005-2006-cı illərdə adı İtaliyadakı futbol korrupsiyası qalmaqalında çəkilsə də, həmin ittihamlar sübut olunmadı.

Özü vaxtilə futbol oynayıb, yarımmüdafiəçi olub. O həm də uğurlu iş adamıdır. Ailəsi işıqlandırma avadanlıqlarının istehsalı ilə məşğuldur. Hakim həmin şirkətin payçılarındandır. Bakıda ilk dəfədir VAR sistemi tətbiq olunacaq. Yəni Rokkiyə Bakıdakı oyunu idarə etməyə müasir texnologiya da kömək edəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Bakıətrafı qəsəbə istixanalarında qadın əməyinin istismarı qulçuluq dövrü ilə müqayisə edilir...

**İstixana (parnik) torpaqdan əkin üçün bütün ili istifadə etməyə imkan verən texnologiyadır. Son dövrlər istixana komplekslərinin yaradılmasına maraq artıb. Belə komplekslər Bakıətrafı kənd və qəsəbələrdə daha çoxdur. Xüsusən də Sabunçu, Xəzər və Suraxanı rayonlarında daha çox istixana təsərrüfatı fəaliyyət göstərir.**



*"...onlar iş yerlərini itirəcəklər"*

## *Sahib Məmmədov: "İstixanalarda çalışan qadınlar ağır iş şəraiti ilə bağlı şikayət etməkdən çəkinirlər"*

İstixana təsərrüfatlarının normal fəaliyyətlərini təmin etmək üçün onlar mütləq içməli su, kanalizasiya xidmətləri, suvarma suyu, istilik və elektrik enerjisi ilə təmin edilməlidir. Müasir standartlara cavab verən, Hollandiya, İspaniya, Türkiyə və digər aparıcı ölkələrdən gətirilmiş hazır modullar əsasında qurulmuş istixanaların istilik təchizatı qaz vasitəsilə təmin olunur, elektrik enerjisi, suvarma suyu ilə təchizatında problem yaşanmır. Havalandırma, isitmə, işıqlandırma sistemləri mexaniki deyil, avtomatik olaraq həyata keçirilir. Ancaq Bakıətrafı kənd və qəsəbələrdə fəaliyyət göstərən istixanaların əksəriyyəti hazır modullardan deyil, kustar vasitələrlə, dəmir boruların və armaturların qaynaq edilməsi yolu ilə qurulur. Örtük məqsədilə istifadə edilən materialların çoxu ucuzdur.

Sözügedən istixana təsərrüfatlarında əsasən qadınlar işləyirlər. Belə ki, orada çalışan işçilərin 90 faizindən çoxu qadınlardır. Onların da əksəriyyəti son illər Bakıya köçən və kasıblıqdan əziyyət çəkən şəxslərdir ki, məcburiyyətdən parniklərdə işləyirlər. Burada başlıca problemlərdən biri ondan ibarətdir ki, istixana təsərrüfatlarında çalışan qadınlar, faktiki olaraq, istismar edilirlər. Əmək qanunvericiliyinə görə, 8 saat iş rejimi olduğu halda, sözügedən istixanalarda qadınlar suyun, istinin altında 10-11 saat işlədilir. Orada çalışan qadınların dediyinə görə, isti havalarda işləmək daha dözülməz olur. Məlumdur ki, istixana təsərrüfatlarında müxtəlif kimyəvi preparatlardan istifadə edilir. Ancaq istehsal xərcləri artmasın deyə, işçilərə qoruyucu maskalar və digər bu kimi vasitələr verilmir. Ən yaxşı halda keyfiyyəti aşağı olan qoruyucu vasitələrlə təmin edilirlər. Bu da onların səhhətində ciddi problemlərin yaranmasına yol açır. Gündə hər işçiyə 10-12 manat verməklə, bir növ, orada çalışan qadınlar qul kimi istismar edilir. Ehtiyac üzündən bir çoxu bu ağır şərtlər altında işləməli olur. Bir sözlə, Bakıətrafı istixanaların əksəriyyətində iş şəraiti çox ağırdır və əmək qanunvericiliyi ilə bağlı tələblərə məhəl qoyulmur.

**Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası İcraiyyə Komitəsinin sədri Sahib Məmmədovun sözlərinə görə, istixanalarda neçə ildir sözügedən problemlər mövcuddur:** "Orada işçilərlə heç bir əmək müqaviləsi bağlanmır. Əmək münasibətləri rəsmiləşdirilmədiyinə görə belə hallar yaşanır. Bu zaman nə normal iş rejimi tətbiq olunur, nə də müvafiq tariflə məvacib verilir. Gündəlik işlədib ona uyğun olaraq minimum səviyyədə pul verirlər. Oradakı ağır əmək şəraitinin sağlamlıq üçün hansı fəsadlar yaratması isə bir ayrı mövzunun söhbətidir. Çünki istixanalar qapalı olduğundan, orada müxtəlif dərmanlardan istifadə edilir və bu da müəyyən xəstəliklərə şərait yaradır. Əmək münasibətləri rəsmiləşdirilmədiyinə görə peşə xəstəliyinə görə qeydiyyatdan keçə bilmirlər, icbari dövlət sığortasına cəlb olunmurlar və s. Bununla bağlı problemləri uzun illərdir deyirik. Ancaq bunu aradan qaldırmağa yönəlik tədbirlər çox aşağıdır. Bu ildən Vergilər Nazirliyi qeyri-formal əmək bazarının ləğv edilməsi istiqamətində səy göstərir. Ancaq digər dövlət orqanlarının bu yöndə hər hansı ciddi fəaliyyətini görmürəm. Hazırda Dövlət Əmək Müfəttişliyinə bu sahədə yoxlama aparmasına moratorium qoyulub. Baxmayaraq ki, səlahiyyəti olanda belə, elə bir effektiv işləri yox idi. Ancaq xüsusi şikayət olsa, o zaman bu işi araşdıra bilərlər".

**S.Məmmədovun fikrincə, istixanalarda çalışan qadınlar ağır iş şəraiti ilə bağlı şikayət etməkdən çəkinirlər: "Çünki onların bununla bağlı şikayət etməsi, yaxud bu məsələnin qabardılması onların ziyanına olacaq. Çünki bunun müqabilində onlar iş yerlərini itirəcəklər. Bir növ, bu məsələni ictimailəşdirənlər onların çörəyinə bais olacaqlar. Bax, bu kimi səbəblər üzündən sözügedən problemlər öz həllini tapmır".**

***Vidadi ORDAHALLI***

# Təhsil Nazirliyi şagird intiharlarının kökləri ilə bağlı orijinal platforma nümayiş etdirdi - məktəblərdə şagirdi intihara sövq edən nə ola bilər ki?

**Son zamanlar Azərbaycanda orta məktəb şagirdlərinin intiharı ilə bağlı xəbərlərə tez-tez rast gəlinir. Şagirdlərin intihar etməsi ilə bağlı sosial mediada müxtəlif fikirlər səslənir. Əsasən şagirdin intihar etməsinin səbəbi kimi məktəblərdə təlim-tərbiyə işinin düzgün qurulmaması, şagirdlərlə psixoloji işin səviyyəsinin aşağı olması göstərilir.**




*"Məktəblilərin psixoloji təsirə məruz qalması, sevgi münasibətləri, iqtisadi amillər, valideynlərin onlarla düzgün münasibət qurmaması kimi arqumentlər üstünlük təşkil edir"*

## *Könül Vaqifqızı: "Məktəblilərin intihar etməsinin əsas səbəblərindən biri onların ailələrində yaşanan problemlərdir"*

Ancaq sosial araşdırmalar və dövlət qurumlarının apardığı monitorinqlər bu fikrin əsassız olduğunu ortaya çıxarır.

Təhsil nazirinin müavini Firudin Qurbanov "Beynəlxalq Ailə günü"nə həsr edilən "Ailə dəyərlərinin möhkəmləndirilməsi cəmiyyətin mənəvi sağlamlığının əsasıdır" adlı konfransda çıxışı zamanı bildirib ki, şagirdlərin intihar etməsinin səbəblərindən biri ailədaxili münaqişələrdir: "Son zamanlar orta məkəblərdə şagirdlərin intihara əl atmasının səbəbləri çoxdur. Bu səbəblərdən biri də ailədaxili mühitdir, münaqişələrdir. Bu mühit bəzi hallarda uşaqların psixikasını pozur. Belə olduqda həkimlər işə qarışmalıdırlar".

Ekspertlər də hesab edirlər ki, məktəblilərin intihar etməsinin səbəbi onların şəxsi həyatında yaşadığı problemlər, ailə daxilində yaşanan münaqişələrdir.

Psixoloq Könül Vaqifqızı bizimlə söhbətində qeyd etdi ki, məktəblilərin intihara meylli olması isə müxtəlif amillərdən qaynaqlana bilər. Əsasən yeniyetmələrin psixoloji təsirə məruz qalması, sevgi münasibətləri, iqtisadi amillər, valideyinlərin onlarla düzgün münasibət qurmaması kimi arqumentlər üstünlük təşkil edir: "İnsanın ən çox psixoloji sarsıntıya məruz qaldığı dövr məhz 7 yaşdan 17 yaşa qədər olan vaxtdır. Bu səbəbdən də həmin yaşda olan uşaqlar mütləq mütəmadi olaraq psixoloq nəzarətində olmalıdırlar. Elə buna görə də, beynəlxalq praktikaya uyğun olaraq, bütün məktəblərdə psixoloqlar işləyirlər. Təəssüflər olsun ki, rayonlarda və ucqar kəndlərdə psixoloq çatışmazlığı yaşanır. Orta məktəblərin çoxunda psixoloqlar yoxdur, yaxud onlar vəzifələrini düzgün yerinə yetirə bilmirlər".

Həmsöhbətimizin sözlərinə görə, məktəblilərin intihar etməsi həm də onların ailələrində yaşanan problemlərlə bağlıdır: "Bu hal daha çox boşanan ailələrdə müşahidə olunur. Həmçinin, uşaqlar arasında fərq qoyulması da intihara gətirib çıxara bilən səbəblərdəndir.

**Digər faktor isə intihara cəhd edən yeniyetmələrin daha çox ruhi problemi olan və alkoqolizmdən əziyyət çəkən şəxslərin ailəsində böyüməsidir. Göstərilən məqamların hər biri ailələr üzərində uzunmüddətli tədqiqatlar əsasında müəyyənləşdirilib".**

*Günel CƏLİLOVA*

# "Nə qədər ağrıdıcı da olsa, gənclərimiz özlərini xarici film qəhrəmanlarına oxşadırlar"

**"Azərbaycanın Bütövlüyü Uğrunda" İctimai Birliyi (ABUİB) Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının gənclər arasında təbliği" adlı layihəyə start verib. Mayın 15-də layihə çərçivəsində ilk tədbir keçirilib.**



## *"Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının gənclər arasında təbliği" adlı yeni layihəyə start verildi*

Layihənin icra müddəti və başlıca məqsədi barədə iştirakçılara ətraflı məlumat verən layihə rəhbəri Nərminə Dadaşova qeyd edib ki, QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə reallaşdırılacaq "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının gənclər arasında təbliği" adlı layihənin icra müddəti 3 aydır: "May ayının 15-dən iyulun 15-dək davam edəcək layihə çərçivəsində gənclər arasında azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının təbliği məqsədilə ümumtəhsil müəssisələrində də bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulub. Dəyərli ziyalılarımız, elm adamları və vətəndaş cəmiyyəti nümayəndələrinin də iştirakı ilə baş tutacaq həmin tədbirlərdə gənclər azərbaycançılıq və hərbi vətənpərvərlik istiqamətində maarifləndiriləcək". Layihə rəhbəri deyib ki, orta ümumtəhsil müəssisələrində keçirilən tədbirlərdə yazıçı-publisist, tarixi romanlar müəllifi Yunus Oğuz, millət vəkili, yazıçı Aqil Abbas, Elçin Hüseynbəyli ilə məktəblilərin görüşü keçiriləcək, məktəblilər azərbaycançılıq və hərbi vətənpərvərlik mövzusunda maarifləndiriləcək. Nərminə Dadaşova onu da qeyd edib ki, layihənin icrası müddətində şəhid ailələrinə baş çəkiləcək, qeyd edilən mövzuları əhatə edən maarifləndirici materiallar dərc olunacaq.

Sonra çıxış edən layihənin eksperti Süleyman İsmayılbəyli təşkilatın kifayət qədər həssas bir mövzuya diqqət ayırdığını bildirib. O deyib ki, Azərbaycan müharibə şəraitində olduğundan, torpaqlarımızın 20 faizi işğala məruz qaldığından bizlər daha çox vətənpərvər olmalı, bu ruhda böyüyüb tərbiyə almalıyıq: "Təsadüfi deyil ki, dövlət gənclər siyasətində də qeyd etdiyimiz nüans əsas istiqamətlərdən biri kimi qeyd edilir. Vətənpərvər olmaq, həm də azərbaycançı olmaq deməkdir. Çünki vətənpərvər olmayan biri deyə bilməz ki, azərbaycançıyam. Bu iki məhfum bir-birinə sıx bağlıdır". Süleyman İsmayılbəyli onu da deyib ki, son illərə qədər vətənpərvərlik bir qədər arxa plana keçmiş, yad və xarici təsirlər gənclərimizin başqa bir ruhda böyüməsi, tərbiyə almasına yol açmışdı: "Nə qədər ağrıdıcı da olsa, gənclərimiz özlərini xarici filmlərin qəhrəmanlarına bənzədirdilər. Lakin hər birimizin qürur hissi ilə qeyd etdiyimiz Ramil Səfərov, Mübariz İbrahimov, Aprel zəfəri kimi hadisələr gənclərimizdə vətənpərvərlik hisslərini, belə demək mümkünsə, yeni bir səviyyəyə qaldırdı". Ekspertin sözlərinə görə, gənclər arasında vətənpərvərlik hissləri nə qədər yüksək səviyyədə olsa da, yenə də bu istiqamətdə işləmək, davamlı və sistemli şəkildə iş aparmaq lazımdır.

Daha sonra çıxış edən layihənin eksperti Alim Hüseynli də "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının gənclər arasında təbliği" adlı layihənin əhəmiyyətindən danışıb. Bildirib ki, sözügedən mövzu günümüz üçün kifayət qədər aktualdır. Alim Hüseynli çıxışında əsas diqqəti azərbaycançılıq ideologiyasına çəkib və bildirib ki, uzun illər ərzində formalaşaraq insanların şüurunda həkk olunan ictimai dəyərlər dövlətin və cəmiyyətin inkişafında mühüm rol oynayır. Onun sözlərinə görə, dövlətin və cəmiyyətin gələcək inkişafı həmin dəyərlər üzərində formalaşan vahid ideologiyadan asılı olur: "Vahid ideologiya olmadıqda isə yaranmış boşluq dövlətin inkişafında bir əngələ çevrilir. Belə bir boşluq Azərbaycan müstəqillik əldə etdiyi ilk illərdə müşahidə olunurdu. Uzun illər hakim olmuş kommunizm ideologiyasının süqutundan sonra yeni qurulan dövlətin əsasları insanlar tərəfindən aydın qəbul edilmirdi. Məhz buna görə Azərbaycanın ümummilli lideri Heydər Əliyev 1993-cü ildə Azərbaycan cəmiyyətinin inkişafının ideya təməli olan azərbaycançılıq konsepsiyasını irəli sürdü.

Azərbaycançılığın mahiyyətindən danışan Alim Hüseynli qeyd edib ki, azərbaycançılıq termini nisbətən yeni yaranan anlayışdır: "Mahiyyət isə ondan ibarətdir ki, azərbaycançılıq ideyası Azərbaycanın müstəqilliyini qorumaq, demokratik inkişafı təmin etməklə bərabər, davakar millətçilik və şovinizmə qarşı təşəkkül tapmış ideologiyadır. Azərbaycançılıq ideyasının kökündə millətçilik yox, vətəndaşlıq dəyəri dayanıb. Bu ideyanın məqsədi çoxmillətli Azərbaycan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır.

Tədbirdə çıxış edən digər qonaqlar sözügedən layihənin əhəmiyyəti və gənclərin vətənpərvər ruhda tərbiyə olunmasına mümkün müsbət təsirlərindən danışıblar.

*Alim, Süleyman*

**Uşaqdan tutmuş böyüyə qədər hər kəs mobil telefonlardan istifadə edir. Gizlin deyil ki, bizim cəmiyyətdə insanlarda mobil telefon asılılığı yaranıb. Kimin telefonu daha bahalıdır, kimin telefonunun funksiyaları daha genişdir, kimin sosial şəbəkələrdə daha çox əlaqələri var kimi xoşagəlməz tendensiyalar yayılmağa başlayıb.**

# Məktəblər mobil telefonlarda əxlaqsız videoların yayılmasına qarşı şagirdlər arasında maraqlı işə başlayıb - prosesə bəzən valideynlər də cəlb olunur



*"Məktəb şagirdlərinin bir çoxu mobil telefonda yaşlarına uyğun olmayan videolara, fotolara baxır, bu azmış kimi, onu başqa şagirdlərə də göstərir"*

## *Fatimə Hacıbəyli: "Məktəblər tərəfindən şagirdlərin mobil telefondan, onun vasitəsilə sosial şəbəkələrdən istifadə etməsinə qadağa qoyulması və buna valideynlərin də dəstək verməsi çox doğru addımdır"*

Mobil telefon insanların həyatına daxil olduqdan sonra onların baxışlarında, davranışlarında bir sıra dəyişikliklər baş verməyə başladı. Təəssüf ki, bu da əsasən özünü mənfi tərəfdən göstərdi. Xüsusən də uşaq və yeniyetmələrin davranışlarına, baxışlarına mobil telefonlar mənfi təsir göstərdi. Biz bu gün həmin mənfi təsirlərin nəticələrini izləmək məcburiyyətində qalmışıq.

Hazırda məktəblilərin də mobil telefondan istifadə etməsi adi hala çevrilib. Onlar nəinki məktəbdən kənarda, hətta məktəbdə də telefondan istifadə edirlər. Bəzi şagirdlər dərslərin gedişi zamanı da telefondan istifadə edir, bir-birilə yazışır, sosial şəbəkələrə daxil olurlar. Məktəblilərin sosial şəbəkələrdən, xüsusən də "İnstagram" və "Facebook"dan, eləcə də "WatsApp"dan istifadə etməsi adi hala çevrilib. Yuxarı siniflərdə oxuyan şagirdlərin bir çoxu sosial şəbəkələrə daxil olur, orada müxtəlif yazışmalar həyata keçirir. Bu azmış kimi, hətta bəzi məktəblilərin telefonlarında intim video və şəkillərə də rast gəlinir. Bəzi şagirdlər internetdən yükələdikləri intim videoları sosial şəbəkələr vasitəsilə bir-birinə ötürürlər. Bu yazışmalar, proseslərin müəllimin dərsdə məşğul olduğu vaxt, məsələn, lövhədə fizika, kimyaya aid düsturları şagirdlərə izah edərkən baş verdiyi bildirilir. Məktəblər şagirdlərin mobil telefon daşımasına qarşı müxtəlif tədbirlər keçirsə də, bu elə də effekt vermir. Çünki bu məsələdə məktəb və valideyn birliyi olmalıdır. Artıq bu kimi halların qarşısının alınması üçün Bakı məktəblərində valideynlərin iştirakı ilə açıq söhbətlər təşkil edilir. Məktəb direktorları valideynlərlə əməkdaşlığın vacib olduğunu bildirir və hesab edirlər ki, şagirdlərin məktəbdə və məktəbdənkənar geniş şəkildə mobil telefonlardan, eyni zamanda, müxtəlif sosial şəbəkələrdən istifadə etməsinin qarşısını yalnız məktəb və valideyn həmrəyliyi ala bilər. Məktəb rəhbərləri görüşlərdə valideynlərə tövsiyə edirlər ki, onlar övladlarının sosial şəbəkələrdən istifadəsinə məhdudiyyətlər qoymalıdırlar. Çünki mobil telefondan istifadə edən yeniyetmələrin xeyli qismi burada müxtəlif saytlara daxil olur və bu saytlardan pornoqrafiya nümunələri yükləyirlər və həmin videoları, fotoları birbirinə ötürürlər. Məlumatlara görə, hətta bəzi qızlarin da telefonlarında o cür fotolar və videolar aşkarlanıb.

"Vəfa" Sosial İctimai Birliyinin rəhbəri Fatimə Hacıbəyli bildirdi ki, yuxarı sinif şagirdlərinin davranışlarında mənfi dəyişikliklərin səbəbi onların məhdudiyyətsiz internet resurslarından istifadə etməsidir. F.Hacıbəyli hesab edir ki, məktəb hər hansı bir şagirdə kiçik bir irad bildirdikdə valideynlər dərhal məktəbə qarşı hücuma keçirlər. Təlim-tərbiyə işinin təhsilin inkişafında mühüm rol oynadığını deyən F.Hacıbəylinin sözlərinə görə, şagirdlərin tərbiyəsinin, əxlaqi dünyagörüşünün formalaşmasında məktəb və valideyn paralel işləməlidir. "Bu gün şagirdlərin bütün funksiyalarla təchiz edilmiş bahalı mobil telefonlar gəzdirməsi düzgün deyil. Onlar valideynlərin onlara yaratdıqları şəraitdən sui-istifadə edirlər. Bilirəm, hamımız uşaqlarımızdan nigaran qalırıq, ona görə də onlara telefon gəzdirməyə icazə veririk. Ancaq gərək şagirdlərə sadə telefonlar verilsin ki, onlar bu kimi hallara yol verməsinlər. Çox təəssüf ki, bu gün sosial şəbəkə istifadəçiləri sırasında məktəblilər də çoxdur. Onların "Facebook", "İnstagram" səhifələri var, orada aktiv paylaşımlar edirlər. Məktəb şagirdlərinin bir çoxu mobil telefonda yaşlarına uyğun olmayan videolara, fotolara baxır, bu azmış kimi, onu başqa şagirdlərə də göstərir. Bilirsiniz, bu kimi neqativ hallarla məktəb təkbaşına mübarizə apara bilməz, bu işə cəmiyyət də, valideynlər də qoşulmalıdır. Bəzi valideynlər uşaqlarının bu hərəkətlərinə göz yumurlar, onlara elə gəlir ki, uşaqları düzgün yoldadır. Məktəblərin yuxarı sinif şagirdlərinin davranışlarını izlədikdə hədsiz dərəcədə mənfi çalarlar özünü göstərir. Bu gün nəinki məktəbə mobil telefon gətirən şagirdlər var, hətta makiyajla gələn qızlar da yox deyil. Məktəb direktorları, sinif rəhbərləri bu məsələləri şagirdlərə irad tutanda onlar dərhal şantaja əl atırlar. Bu kimi halların olması təəssüf doğurur. Məktəblərdə valideynlərin iştirakı ilə xüsusi iclasların keçirilməsi və valideynlərin maarifləndirilməsi olduqca düzgün addımdır. Ola bilsin, valideyn övladının nə ilə məşğul olduğunu bilmir. Ancaq onlar məktəbdə baş verdiyindən, müəllimlər bunu yaxından müşahidə edirlər. Bir də bizim valideynlərdə belə bir xarakter var, məktəbdən onların övladları ilə bağlı hər hansı bir irad bildiriləndə, "mənim uşağım, qızım, oğlum bu hərəkəti edə bilməz" - deyirlər. Araşdıranda görürsən ki, elə o neqativ işləri bu valideynlərin uşaqları edirlər. Məktəblər tərəfindən şagirdlərin mobil telefondan, onun vasitəsilə sosial şəbəkələrdən istifadə etməsinə qadağa qoyulması və buna valideynlərin də dəstək verməsi çox doğru addımdır. Bütün valideynlər bu məsələdə məktəblə həmrəy olmalıdır" - deyə F.Hacıbəyli qeyd etdi.

***İradə SARIYEVA***

**Dövlət Gömrük Komitəsinin əməkdaşları ölkə ərazisinə qanunsuz yolla gətirilən külli miqdarda tütün məmulatı və spirtli içkinin realizə edilməsinin qarşısını alıb.**

# "Daewoo" avtobusu Qazaxdan Bakı avtovağzalına çatan kimi "Lada" maşını ona yaxınlaşdı - gömrükçülərin əməliyyatı bitdi...



## *Qanunsuz yolla gətirilən tütün məmulatı və spirtli içkilərin realizə edilməsinin qarşısı alınıb*

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən "Bakı Xəbər"ə verilən məlumata görə, DGK Əməliyyat-İstintaq Baş İdarəsi Əməliyyat İdarəsinin Hüquqpozmalarla mübarizə şöbəsinə Qazax-Bakı istiqamətində hərəkət edən "Daewoo" markalı sərnişin avtobusu ilə üzərində Azərbaycan Respublikasının aksiz markası olmayan tütün məmulatı və spirtli içkilərin Bakı Beynəlxalq Avtovağzalı istiqamətində daşınması və naməlum şəxsə satılacağı barədə məlumat daxil olub.

Bu məlumat əsasında Bakı Beynəlxalq Avtovağzalı ərazisində əməliyyat tədbiri keçirilib. Əməliyyat qrupunun üzvləri avtobusun salon və baqajına ilkin baxış keçirərkən, həqiqətən avtobusda 3 ədəd karton qutuda və 23 ədəd sellofan torbada üzərində Azərbaycan Respublikasının aksiz markası olmayan tütün məmulatı və spirtli içkilərin olduğu müəyyən edilib.

Sorğu-sual zamanı avtobusun sürücüsü tütün məmulatı və spirtli içkilərin Qazax şəhərində tanımadığı şəxs tərəfindən ona verildiyini və Xırdalan şəhərindəki Bakı Mühəndislik Universiteti yaxınlığında Qərib adlı şəxsə təhvil verilməli olduğunu bildirib.

Beləliklə, əməliyyat tədbiri sonra sözügedən ünvanda davam etdirilib. Avtobus həmin ərazidə dayandıqdan bir neçə dəqiqə sonra ora "Lada" markalı minik avtomobili yaxınlaşıb. Həmin avtomobili idarə edən şəxs avtobusun salon və baqajında olan tütün məmulatı və spirtli içkiləri götürərkən saxlanıb.

Daha sonra DGK-nın Əməliyyat-İstintaq Baş İdarəsində 3 ədəd karton qutuya və 23 ədəd sellofan torbaya təkrar baxış keçirilib. Bu zaman üzərində Azərbaycan Respublikasının aksiz markası olmayan cəmi 73.800 ədəd müxtəlif markalı siqaret və hər biri 1 litr həcmində cəmi 30 ədəd müxtəlif adda spirtli içkilər aşkar olunub.

Faktla bağlı araşdırma aparılır.

***Baki-xeber.com***

**Əmək münasibətlərinin rəsmiləşdirilməsi, vətəndaşların əmək və sosial hüquqlarının qorunması sahəsində mövcud problemlərin həlli dünyanın bütün ölkələrində olduğu kimi, Azərbaycan üçün də çox əhəmiyyətlidir.**

# Azərbaycanda əməyin tam leqallaşdırılması yollarında ən böyük maneələr...

***Əli Əlirzayev:** "Ölkədə əməyin tam leqallaşdırılmasında daha çox sahibkarlar maraqlı deyil"*



*"İşçilərin seçim imkanı məhdud olduğuna görə bu məsələnin üzərinə çox gedə bilmirlər"*

Məsələ ondadır ki, qeyri-formal məşğulluq əmək bazarının tənzimlənməsinə, vergi, sosial sığorta və digər məcburi ödənişlərin həyata keçirilməsinə, işçilərin gələcək sosial təminat hüquqlarına malik olmasına ciddi maneə yaradır. Son illər Azərbaycanda qeyri-formal əmək münasibətlərinin aradan qaldırılması istiqamətində bir sıra addımlar atılır. Qanunvericilik təkmilləşdirilir, Vergilər Nazirliyi nəzarət tədbirlərini gücləndirir. Ölkədə işəgötürən-işçi münasibətlərinin rəsmiləşdirilməsi, əməyin ödənişinin təşkilinə nəzarət əvvəlki illərə baxanda xeyli yaxşılaşıb. Ancaq bütün bunlara baxmayaraq, ölkədə əməyin tam leqallaşdırılmasına hələ də nail olmaq mümkün olmayıb. Bəzi məlumatlara görə, Azərbaycanda 1 milyon nəfərdən çox qeyri-formal məşğul insan var. Bu o deməkdir ki, bu qədər insan sığortaya cəlb olunmur və gələcəkdə pensiya ala bilməyəcək. Ona görə də bu sahədə maarifləndirməni gücləndirmək, əməyin leqallaşdırılmasının vacibliyini qeyd etmək lazımdır. Bütün mümkün vasitələri işə salıb sözügedən sahədə dönüş yaratmaq gərəkdir.

Bütün bunlarla yanaşı, ölkədə əməyin tam leqallaşmasına niyə nail olmaq mümkün olmur? Buna ən böyük maneə nədir, sahibkarlar istəmir, yoxsa başqa nəsə var?

**Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayevin sözlərinə görə, bunun müxtəlif səbəbləri var:** "Sahibkarlar gəlirlərini gizlədirlər. Bu minvalla, Sığorta Fonduna, Vergilər Nazirliyinə ödənişlər etmək istəmirlər. Gəlirlərini gizlətdikləri üçün bütün bunlar uçota alınmır. Uçota alınmayan gəlirin də vergisi olmur. Ona görə də sahibkarlar iş yerlərində orta aylıq əməkhaqqını aşağı salırlar, minimum əməkhaqqı verirlər. İşin xarakterini dəyişib istehsal olunan məhsulun maya dəyərini aşağı salırlar. Bu minvalla, gəlirləri gizlədirlər. Deməyim odur ki, ölkədə əməyin tam leqallaşdırılmasında daha çox sahibkarlar maraqlı deyil. Bu minvalla, onlar daha çox gəlir əldə etməyə çalışırlar. İşçilərin seçim imkanı məhdud olduğuna görə bu məsələnin üzərinə çox gedə bilmirlər. İş yerlərinin az olması və kənar mühit buna mənfi təsir edir. İş yerini itirməməkdən ötrü öz hüquqlarını tələb etməkdən çəkinirlər. Nəticədə ölkədə qeyri-formal məşğulluğun miqyası elə də kiçilmir. Bu məsələnin birdəfəlik həlli asan deyil. Bunun üçün ilk növbədə sahibkarlar öz öhdəliklərini dərk etməlidirlər. Sözügedən problemin aradan qaldırılması üçün kompleks tədbirlər görülməlidir. O cümlədən, maarifləndirmə işləri aparılmalıdır".

***Vidadi ORDAHALLI***

**Gündəlik olaraq Bakıda, ya da regionlarda kiminsə bu və ya digər səbəblərdən evinin, əmlakının qismən və ya tamamilə yanması ilə bağlı xoşagəlməz xəbərlər alırıq. Mülk sahibləri evlərinə dəymiş ziyanı dilə gətirsələr də, heç bir yerə müraciət edə bilmirlər.**

# Azərbaycanda hər 10 əmlakdan biri sığorta olunub - anormal iqtisadi rəqəmin səbəbi...

***Xəyal Məmmədxanlı:** "Nəzarət və cəza mexanizminin tətbiq olunmaması səbəbindən vətəndaşlar buna maraq göstərmir"*




*"Başqa bir tərəfdən, sığorta şirkətləri bu sahədə vətəndaşlarla iş aparmırlar"*

Çünki yaşayış mənzilləri və ya evlərini sığortalatmağa maraq göstərməyiblər. Ya da bu məsələyə ciddi yanaşmayıblar. Son illər bu kimi halların artması artıq hər kəsi narahat etməyə başlayıb. Bu yöndə bəzi işlər aparılsa da, sözügedən sahədə vəziyyət elə də dəyişməyib. Əmlak sığortası "İcbari sığortalar haqqında" qanunda icbari xarakter daşıyır. Yəni evinin sənədi olan vətəndaşlar üçün bu məcburi xarakter daşıyır, eynilə avtomobillərdəki kimi. Müəyyən olunmuş məbləğ miqdarında, məsələn, Bakı şəhəri üçün ildə 50 manat, Gəncə, Naxçıvan, Sumqayıt üçün 40 manat, digər rayon və şəhərlər üçün 30 manat müəyyən olunub. Buna da müvafiq olaraq 25000 manat, 20000 manat və 15000 manat sığorta ödənişləri nəzərdə tutulur. Yəni ölkədə daşınmaz əmlakın çıxarış sənədi ("kupça") olan bütün əmlaklar sığortalanmalıdır. Etməyənlər cəzalanmalıdır. Lakin cəza mexanizmi inzibati Xətalar Məcəlləsində nəzərdə tutulsa da, icra mexanizmi yoxdur. Bu arada məlum olub ki, fiziki şəxslərə məxsus daşınmaz əmlakların sığortalanmasına dair vəziyyət qənaətbəxş deyil. Statistika bu sektorda potensialın çox böyük olduğunu açıq bir şəkildə ortaya qoyur. Ölkədə hər daşınmaz 10 əmlakdan 1-nin sığortası var. 2018-ci ildə Azərbaycanda daşınmaz əmlakın və onun istismarı ilə bağlı mülki məsuliyyətin sığortasından təxminən 30 milyon manat sığorta haqqı toplanıb, bu 2 növ sığortanın hesabına toplanıla bilən potensial sığorta haqqının məbləği isə 250-300 milyon manatdır. Maraqlıdır, fiziki şəxslər əmlakın sığortalanmasına niyə maraq göstərmir?

**Sözügedən məsələyə aydınlıq gətirən sığorta üzrə ekspert Xəyal Məmmədxanlı bunu bir sıra amillərlə əlaqələndirdi:** "Daşınmaz əmlakın icbari sığortası "İcbari sığortalar haqqında" Qanunun Xüsusi bölməsinin 2-ci fəslində öz əksini tapıb. Daşınmaz əmlakın icbari sığortası daşınmaz əmlakın yanğın və ya digər hadisələr nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı formada itkisi ilə bağlı dəyən zərərin əvəzinin ödənilməsi məqsədilə tətbiq edilir. Bu məqsədlər üçün hüquqi və fiziki şəxslərə məxsus tikililərin, yaşayış və qeyri-yaşayış sahələrinin, yaşayış evləri, binalarının və mənzillərin, habelə dövlət əmlakının sığortası icbaridir. Ancaq nəzarət və cəza mexanizminin tətbiq olunmaması səbəbindən vətəndaşlar buna maraq göstərmir. Baxmayaraq ki, qanunda cəza da var, nəzarət mexanizmi də. Lakin bunun tətbiq edilməməsi səbəbindən vətəndaşlar evlərini sığorta etməkdən yayınırlar. Başqa bir tərəfdən, sığorta şirkətləri bu sahədə vətəndaşlarla iş aparmırlar. Öz təcrübəmdən deyə bilərəm ki, insanlara normal şəkildə sığortanın əhəmiyyətini başa salanda, onlar buna maraq göstərir. Bu gün insanların bir çoxunun bundan xəbəri olmadığına görə mənzillərin çoxu sığortalanmayıb. Digər bir problem isə ondan ibarətdir ki, Bakı və Abşeron yarmadasında 600 minədək sənədsiz ev var. Həmin əmlakların çıxarışı olmadığına görə qanun onları sığortalamağı qadağan edir. Ən nəhayət, daşınmaz əmlakın sığortalanması elektronlaşmayıb. Hələ də bununla bağlı işlər kağız üzərində aparılır. Bu nəyə gətirib çıxarır? Bu ona gətirib çıxarır ki, administrativ xərclər artır. Elektron formada olsa, bu, sığorta şirkətləri üçün ucuz olacaq. Sadalanan sözügedən səbəblər üzündən fiziki şəxslərə məxsus mənzillərin çoxu sığortalanmayıb. Ona görə də bütün bunlar öz həllini tapmalıdır. Nə zaman öz həllini tapsa, o zaman mənzillərin əksəriyyəti sığortalanacaq".

***Vidadi ORDAHALLI***

# Şou müğənnilərinin özlərinə saxta fanatlar ordusu yaratmaq taktikası...

**Sənəti, gözəl ifa tərzi, səhnə mədəniyyəti, ifa etdiyi mahnıların səviyyəsi yüksək olan müğənniləri heç bir vaxt tamaşaçı toplamaq fikri məşğul etmir. Onlar yaxşı bilirlər ki, ifa etdikləri mahnılar, əsərlər öz estetik tutumu ilə onsuz da tamaşaçıların ürəyinə yol tapa bilir və belə sənətçilərin tamaşaçı, dinləyici auditoriyası təbii şəkildə yaranır.**



*"Şou-biznes müğənniləri belə saxta fanatların hərəkətləri ilə özlərini xeyli dərəcədə reklam edə bilirlər"*

***Aydın Xan Əbilov:** "Yadıma gəlir ki, Damla Lənkəranda konsert verən zaman guya onun azarkeşləri olduğu deyilənlər özlərini soyuq su ilə dolu hovuza atdılar və bunu onun fanatı olduqları üçün etdiklərini dedilər"*

Lakin sənəti olmayan, ifası yarıtmaz olan şou-biznesçilər var ki, yeri gəldi-gəlmədi, "mənim fanatlarım mənim üçün ölürlər, onların məndən ötrü ürəkləri gedir" və s. fikirlər bildirirlər. Bu gün şou-biznesdə elə müğənnilər var ki, onların nəinki böyük fanat ordusu, heç bir-iki dinləyicisi yoxdur. Belə demək mümkünsə, heç onların ifasına ailə üzvləri belə qulaq asmırlar. Müasir texnoloji vasitələrdən istifadə edərək özlərinə saxta səs düzəltdirən bəzi şou-biznesçilər səslərini fonoqrama yazıb müxtəlif vasitələrlə dövriyyəyə buraxırlar.

Hazırda şou-biznesdə bir neçə "müğənniyəm" deyənlər var ki, onlar özlərinin olmayan fanat ordusundan tez-tez bəhs edirlər. Bəzi şou-biznesçilər rayonlardan birinə istirahətə gedirsə belə, bunu efirlərdə, internet vasitələrində qastrol səfəri kimi qələmə verir və bildirirlər ki, onları orada böyük bir fanat ordusu qarşıladı. Onu da vurğulayaq ki, bəzi şou-biznesçilər rayonlara konsertlərə xüsusi hazırlıq görür, bu o demək deyil ki, onlar öz repertuarları üzərində işləyir, yeni mahnılar hazırlayır, xeyr, xüsusi adamlar vasitəsilə bölgələrdə pul gücünə özlərinə muzdlu fanatlar tuturlar. Bu "fanatlar"ın işi ondan ibarətdir ki, müğənni oxuyarkən onlar özlərini səhnəyə atırlar, müğənniyə toxunmağa cəhd edirlər, ona yalvarırlar, hətta "ağlayırlar" da. Səhnəyə gətirilən dəstə-dəstə güllər, çiçək çələngləri də müğənnilərin özləri tərəfindən əvvəlcədən alınaraq həmin insanlara paylanır. Guya ki, filan şou-biznesçinin konsertinə böyük fanat ordusu gəlib və onlar ona gül-çiçək alıblar. Şou müğənnilərinin saxta fanat ordusuna meyl göstərməsinin, əslində, səbəbi çoxdur. Birincisi odur ki, bu şəxslər özlərini tanıtmaq istəyirlər. Bunun üçün də saxta fanatlar toplamağa başlayırlar. Hətta bəzi şou-biznesçilər var ki, özlərini Aygün Kazımova, Faiq Ağayev, Röya və digər tanınmış şou-biznesçilərlə müqayisə edərək deyirlər ki, fanatlarının sayı onların fanatlarının sayından çoxdur. Obyektivlik naminə deyək ki, adlarını çəkdiyimiz müğənnilərin heç birinin fanatı saxta deyil və gerçəkdən də onların ifalarını sevən, bəyənən insanlar az deyil. Dünən meydana çıxan və heç bir səsi, sənəti olmayanların isə ətrafında görüntülənənlər saxta fanatlardır.

Ekspertlər bildirirlər ki, ümumiyyətlə, nəinki indi, hətta keçmiş dövrlərdə də Azərbaycanda bəzi müğənnilər saxta fanat ordusuna sahib olublar.

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin rəhbəri, yazıçı-kulturoloq Aydın Xan Əbilov "Bakı-Xəbər"ə bildirdi ki, son illər şou-biznesdə müxtəlif yeni texnologiyalar tətbiq olunur, onlardan biri də piar texnologiyasıdır. Onun sözlərinə görə, hər hansı bir müğənni bölgələrdə, şəhərlərdə, konsert məkanlarında konsertlər təşkil etməmişdən əvvəl müxtəlif piar texnologiyalarından istifadə edərək, özünün şəxsiyyətinə, sənətinə maraq oyatmağa çalışır. Bu, dünyanın bir sıra ölkələrində də belədir. Qanunazidd deyilsə, istənilən şəxs belə metodlardan istifadə edə bilər, o cümlədən, şou-biznesçilər. Azərbaycan şou-biznesində bir sıra müğənnilər var ki, onlar ya ağ, ya da qara piardan istifadə etməklə, qalmaqal texnologiyasının müxtəlif üsullarından yararlanmaqla özlərini reklam edirlər. Onlar bölgələrdə özlərini o şəkildə reklam edirlər ki, auditoriya cəlb etsinlər. Bu, şou-biznesdir və onun özünün yazılmış və yazılmamış qanunları var. Dünyanın müxtəlif ölkələrinin şou-biznesçilərinin yaradıcılığına baxdıqda görürsən ki, onlar da qalmaqallardan, konsert zamanı saxta fanatlardan istifadə edirlər. Bizim şou-biznesçilər konsertdən əvvəl qalmaqallı açıqlamalar verir, mətbuat konfransı keçirir və bölgələrdə özləri üçün saxta fanatlar ordusu formalaşdırırlar ki, guya fanatları bunları çox sevirlər, ona görə də onların konsertlərinə gələnlər çoxdur. Əslində, bu konsert proqramı teatrlaşdırılmış olur".

*"... guya fanatları bunları çox sevirlər, ona görə də onların konsertlərinə gələnlər çoxdur"*

A.X.Əbilov hesab edir ki, Azərbaycan şou-biznesçiləri mətbuatdan istifadə edərək özlərinin qalmaqal texnologiyasını işə salır və bunu özlərinin reklamı üçün edirlər. Onların bu reklamları da onları tanıdır və bu da onlara imkan verir ki, bölgələrdə özlərinə saxta fanat ordusu yaratsınlar. "Yadıma gəlir ki, Damla Lənkəranda konsert verən zaman guya onun azarkeşləri olduğu deyilənlər özlərini soyuq su ilə dolu hovuza atdılar və bunu onun fanatı olduqları üçün etdiklərini dedilər. Bütün media bu barədə yazdı.

Şou-biznes müğənniləri belə saxta fanatların hərəkətləri ilə özlərini xeyli dərəcədə reklam edə bilirlər. Bu kimi hallar yalnız bizdə deyil, xaricdə də var. Bu da onların tamaşaçılarda özlərinə maraq yaratmaq istəyilə bağlıdır. Ancaq istərdim ki, müğənnilər belə ucuz yollara əl atmaq əvəzinə, daha intellektual yol seçsinlər. Buna misal olaraq Faiq Ağayevin, Röyanın seçdikləri reklam formatlarını göstərmək olar. Onlar daha intellektual qalmaqal-piar texnologiyasından yararlanırlar" - deyə A.X.Əbilov qeyd etdi.

***İradə SARIYEVA***

# Biləcəri qəsəbəsində narkotacir "Səbiş" yaxalandı...



**Binəqədi Rayon Polis İdarəsi 6-cı Polis Bölməsi əməkdaşlarının həyata keçirdiyi uğurlu əməliyyat-axtarış tədbiri nəticəsində Biləcəri qəsəbəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi və alqı-satqısı ilə məşğul olan şəxslər ifşa edilib.**

Belə ki, daxil olan məlumat əsasında Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Ramil Hüseynov saxlanıb. Onun üzərində şəxsi axtarış aparılan zaman 1,003 qram psixotrop maddə metamfetamin aşkar edilərək götürülüb. R.Hüseynov ifadəsində narkotik vasitəni Biləcəri qəsəbəsində yaşayan "Səbiş" adlı şəxsdən aldığını bildirib. Bölmə əməkdaşlarının keçirdiyi əlavə əməliyyat zamanı həmin şəxs, paytaxt sakini Səbinə Quliyeva da tutularaq istintaqa təqdim edilib. Onun üzərində şəxsi axtarış aparılan zaman 50,020 qram, yaşadığı evdən isə əlavə olaraq 1 kiloqram 15 qram narkotik vasitə heroin aşkar edilərək götürülüb.

S.Quliyeva ifadəsində narkotik vasitələrin satışı uilə məşğul olduğunu etiraf edib.

Faktla bağlı 6-cı Polis Bölməsində toplanan materiallar araşdırılması üçün

Binəqədi RPİ-nin İstintaq Şöbəsinə göndərilib. Hər iki şəxs barəsində cinayət işi başlanıb və barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbirləri seçilib.

№ 87 (3985) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

16 MAY 2019-cu il

## "Azercell"in "Mobil Diş Klinikası" təmənnasız tibbi müayinələrin təşkilini davam etdirir

**Korporativ Sosial Məsuliyyət Strategiyasında müasir texnologiyaların köməyilə insan həyatının keyfiyyətinin artırılmasını hədəfləyən "Azercell" fəaliyyəti boyunca bu istiqamətdə bir sıra sosial layihələrin həyata keçirilməsini dəstəkləyib.**




"Azercell"in təşəbbüsü ilə yaradılan "Mobil Diş Klinikası" bu layihələrdəndir. Həm Bakı, həm də regionlardakı uşaq evlərinə səfər edən klinika növbəti diş müayinələrini Bilgəh qəsəbəsi, 11 saylı inteqrasiya təlimli internat məktəbində təşkil edib. Bir ay boyunca davam edən səfərdə 71 uşaq müayinə və lazımi müalicə ilə təmin edilib.

Azərbaycandakı əksər uşaq evlərində stomatoloji kabinetin olmamasını nəzərə alan "Azercell Telekom" MMC "Mobil Diş Klinikası"nı ən müasir tibbi avadanlıqla təchiz edib. Vurğulamaq istərdik ki, klinikanın əsas hədəfi internat məktəblərinin şagirdlərini, valideyn himayəsindən məhrum uşaqları, qaçqın və məcburi köçkün düşərgələrində məskunlaşmış körpələri müayinə və müalicə etməkdir.

Qeyd edək ki, bütün müayinə və müalicə tədbirləri "Azercell"in dəstəyilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi tərəfindən həyata keçirilir.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Qardaşov Afət Anar oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Abdullayev Bağır Kazım oğlunun adına, Bakı şəhəri, Binəqədi rayonu, 8 mikrorayon, Azadlıq prospekti, ev 32, mənzil 140 ünvanının qeydiyyat vəsiqəsi (seriya ÖM №149089) itdiyi üçün etibarsız sayılır.

İsmayılov Şahin Əli oğlunun adına, Abşeron rayonu, Digah qəsəbəsində yerləşən torpaq sahəsinə verilmiş çıxarış (seriya RX № 0495922) və torpaq sahəsinin plan və ölçüsü itdiyi üçün etibarsız sayılır.

Güləliyev Çingiz Güləli oğlunun adına, Bakı şəhəri, Binəqədi qəsəbəsi, R.İsmayılov küçəsi, ev 11, mənzil 53 ünvanına 05.04.1995 ci il tarixdə verilmiş qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Səfərli İbrahim İlqar oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır

Əliyev Vaqif Maşdı oğlunun adına, Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, Hacı Məmmədov küçəsi 435, ev 69 ünvanının çıxarışı (seriya RX № 1368661) itdiyi üçün etibarsız sayılır.

Ramazanova Sevinc Cümşüd qızının adına, Bakı şəhəri, Q.Qarayev prospekti, ev 114, mənzil 29 ünvanının çıxarışı (reyestr 009011000211-05101-093115) itdiyi üçün etibarsız sayılır.

Quluzadə Afət Əhməd qızının adına, Bakı şəhəri, Səbail rayonu, Neftçilər prospekti, ev 67, mənzil 33 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## "Bakcell"in PULSUZ 4G internet kampaniyası oktyabr ayına kimi davam edəcək

*320 mindən artıq abunəçi "Mənim Bakcellim" mobil tətbiqindən yararlanır*

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti PULSUZ 1 GB kampaniyasını oktyabr ayına qədər uzadıb. Bu ilin mart ayında elan edilmiş kampaniyanın şərtlərinə əsasən, "Mənim Bakcellim" mobil tətbiqetməsini yükləyib öz nömrəsi ilə qeydiyyatdan keçən hər bir "Bakcell" abunəçisi 1 GB PULSUZ internet trafiki əldə edir.**

Mobil tətbiqetmə "Google Play" və yaxud "Appstore"dan yüklənib pulsuz istifadə oluna bilər. Qeyd edək ki, hədiyyə yalnız "Mənim Bakcellim"də ilk dəfə qeydiyyatdan keçən abunəçilərə təqdim olunacaq. Kampaniyada iştirak edib PULSUZ internetdən yararlanmaq üçün abunəçinin mobil cihazı 4G şəbəkəsini dəstəkləməli və 4G SİM-kartı ilə təmin olunmalıdır. Kampaniyanın müddətinin uzadılması Android və iOS platformalarında istifadə üçün nəzərdə tutulmuş "Mənim Bakcellim" rəqəmsal internet portalı və tətbiqetməsinin uğurları ilə bağlıdır. Belə ki, 2018-ci ilin fevral ayında istifadəyə verilmiş "Mənim Bakcellim" tətbiqetməsini cəmi bir il ərzində 320 mindən çox "Bakcell" abunəçisi yükləyib və bu rəqəmsal kanal üzərindən uğurla həyata keçirilmiş aylıq əməliyyatların sayı 30 minə çatıb. Tətbiqetmə abunəçilər arasında böyük rəğbət qazanıb, onun "Google Play" və "Appstore"da reytinqləri isə çox yüksəkdir. "Mənim Bakcellim" abunəçilərə məlumat mərkəzinə zəng etmədən və müştəri xidməti mərkəzinə getmədən mobil nömrə ilə istənilən əməliyyatı həyata keçirmək imkanı verir. "Mənim Bakcellim" istifadəçilərə maksimum şəffaflıq və rahatlıq, zəng olunmuş nömrələrin siyahısı, zənglərin vaxtı və müddəti və sərf olunmuş məbləğlər daxil olmaqla nömrənin istifadə tarixçəsinə aid bütün məlumatlara tam nəzarət imkanı və hətta onlayn çat kimi üstünlükləri təqdim edir. Qeyd edək ki həftənin 7 günü, günün 24 saatı ərzində fəaliyyət göstərən və 20 saniyəlik ilk cavab vaxtını təmin edən onlayn çat funksiyası üzərindən hər ay 7000 nəfərdən çox müştəri sorğusu emal olunur.

"Mənim Bakcellim" mobil tətbiqetməsini Android və iOS sistemləri ilə çalışan cihazlar üçün aşağıdakı linklərdən yükləmək olar:

http://bit.ly/MenimBakcellim_android
http://bit.ly/MenimBakcellim_IOS

"Bakcell" özünün rəqəmsal müştəri xidməti kanalını daha da inkişaf etdirəcək və müştəriləri daha üstün istifadə təcrübəsi və daha geniş təhlükəsizlik imkanları ilə təmin etmək məqsədilə yaxın gələcəkdə "Mənim Bakcellim" applikasiyasına yeni maraqlı və faydalı funksiyalar əlavə edəcək.





**Qoç** - Təslim olmaq fikrində deyilsiniz, bir cəngavər kimi mənfi tendensiyalarla savaşırsınız. İnadınız təqdirəlayiqdir. Amma bir düşünün, qüvvənizi nəyə sərf edirsiniz? Bu, o qədər vacibdir? Hələ ki, gec deyil, özünüzə gəlin.



**Buğa** - Siz bu gün göylərin himayəsindəsiniz. Rəqiblərinizi qabaqlamaq sizə çətin olmayacaq: onların öz problemləri və daxili münaqişələrinə başları qarışmaqdaykən siz öz məqsədinizə doğru inam və asanlıqla addımlayırsınız.



**Əkizlər** - Şübhələr, həyəcanlar başınızı qatıb. Arzularınız və istəkləriniz təzadlıdır. Odur ki, bir saatın ərzində bir neçə fikir dəyişir, çabalayırsınız. Bununla paralel olaraq əhvalınız da "yo-yo" kimi "atılıb-düşür".



**Xərçəng** - Çox mürəkkəb gün olsa da, ondan faydalanmaq mümkündür. Əsas odur ki, əvvəlcədən uğursuz görünən layihələrə baş qoşmayasınız. Çalışın, heç olmazsa, nəzəri cəhətdən dəyərli nəticələr verə biləcək işlərə köklənəsiniz.



**Şir** - Bu gün heç kimlə ünsiyyətiniz alınmır, xüsusilə də işgüzar danışıqlarda. Sonuncuları təxirə salın: əvəzsiz tərəfdaş kimi qəbul etdiyiniz şəxslərlə də savaşa bilərsiniz. Rəhbərliklə fikir ayrılığı meydana gələcək.



**Qız** - Planlaşdırdığınızdan daha az iş görüb çatdıra bilirsiniz. Çünki, bir çox məsələlər qəfil meydana çıxır və onları tez həll etmək lazım gəlir. Çifayda, heç biri təşəbbüs göstərmir və yalnız sizin əmr və göstərişlərinizi gözləyirlər.



**Tərəzi** - İşlər pis getmir. Ambisiyalı, məqsədyönlü adamlar üçün yaxşı gün sayılmaz. Çünki, iş həyatında uğur qazanmaq elə də asan deyil. Əvəzində yaradıcı ideyaların, eyni zamanda çox cürətli planların həyata keçirilməsi üçün münasib vaxtdır.



**Əqrəb** - Ehtiyatlı olun, tempinizi azaldın, lap parovozun önündə qaçanlara oxşayırsınız. Təbii ki, bu hal çox təhlükəlidir. Çünki, əməkdaşlıq etməyə hazırlaşdığınız şəxslər çatdırmır və gecikirlər.



**Oxatan** - Dostları, tərəfdaşları və müttəfiqləri seçərkən ehtiyatlı və diqqətli olun. Bu gün insanların çatışmayan cəhətləri asanlıqla gözünüzdən yayınır. Hətta, aşkar olanı görmürsünüz.



**Oğlaq** - Neytral gündür. Yalnız gücünüz çatan işlərdən yapışın və yalnız özünüzə güvənin. Sizə kömək etməyə söz verən adamlar hansısa səbəblərdən (istəməyərək və ya qəsdən) vədlərinə xilaf çıxacaqlar.



**Dolça** - Xüsusi bir planı olmayanlar üçün gün çox uğurludur. İş görüşləri sizin təxmin etdiyiniz kimi keçəcək, başgicəllәndirici təkliflər heç gözləməyin, amma qarşılıqlı sərfəli sövdələşmələr mümkündür.



**Balıqlar** - Bu yaxınlarda buraxdığınız səhvlərin düzəldilməsi üçün münasib gündür. Canfəşanlıq etmək lazım deyil. Üstəlik, bəzi işlərinizdə köməkçiləriniz və müttəfiqləriniz sizə yardımçı olacaqlar.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "Nar" "Facebook" səhifəsinə daxil olmuş müraciətləri 100% cavablandırıb

**"Nar"sosial media vasitəsilə yüksək keyfiyyətli, operativ və tam müştəri xidmətləri göstərməkdə davam edir.**

Belə ki, mobil operator sosial şəbəkələr vasitəsilə daxil olan müraciətlərin hamısına cavab verir. 2019-cu ilin birinci rübü ərzində sosial şəbəkələrdən daxil olan müraciətlərin 25%-dən çoxu 1 dəqiqə, 53%-ə qədəri isə 10 dəqiqə ərzində cavablandırılıb. Ümumilikdə, "Nar" bütün sosial şəbəkələrdən daxil olan sorğulara ortalama 8 dəqiqə ərzində cavab verib. Mobil operatorun üstün müştəri xidmətini nəzərə alan "Socialbakers" beynəlxalq tədqiqatı "Nar"ın "Facebook" səhifəsini "Socially Devoted" sertifikatına layiq görüb. Belə ki, təşkilatın 2019-cu ilin birinci rübü ərzində apardığı monitorinqin nəticələrinə görə, "Nar" "Facebook" səhifəsinə daxil olmuş müraciətləri 100% cavablandırıb. Qeyd edək ki, "Nar" abunəçiləri "Facebook", "Twitter" və "Instagram", eyni zamanda, elektron poçt və onlayn-çat vasitəsilə öz suallarını ünvanlaya və qısa müddət ərzində mobil operatorun sosial media komandası tərəfindən cavab ala bilərlər. Abunəçilər sosial şəbəkələr üzərindən əsasən balans haqqında məlumat, şəbəkə/internet çətinliklərinin aradan qaldırılması, "Nar"ın xidmətləri, tarifləri, internet paketləri, nömrələr üzərində əməliyyat, gələn mesajlar, texniki problemlərin həlli, endirim kampaniyaları, keçirilən müsabiqə və tədbirlərdə iştirak və s. haqqında ətraflı məlumat əldə edə bilərlər. Qeyd edək ki, "Nar" sosial şəbəkələr üzərindən tam müştəri xidməti göstərən ilk telekommunikasiya şirkətidir. Mobil operatorun müştəri xidmətləri haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək olar. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib.

"Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39
e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.